RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 261 (8577) ŞƏNBƏ, 12 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dəmir yumruğun Zəfər zərbəsi

## 44 gün ərzində hər gün qələbə müjdəsi aldıq

**İgidlər yan-yana, qəhrəmanlar çiyin-çiyinə qürurla addımladılar möhtəşəm "Azərbaycan fanfarasının" qələbə sədaları altında...**
**Mərd oğullar başlarını dik tutaraq məğrur-məğrur salamladılar Ali Baş Komandanı, bütün Azərbaycan xalqını, şəhidlərimizin ruhunu...**
**Xəzərin üzərindən fəxarətlə göylərinənginliklərinə şığıyan Azərbaycan şahinləri qələbə müjdəsini hayqırdılar bütün dünyaya...**
**Azadlıq meydanı hələ bu günə qədər belə bir təntənəyə şahidlik etməmiş, belə sevinməmişdi...**

"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

Bəli, zaman 10 dekabr 2020-ci ildə həmin tarixi günü yetişdirdi...

Şanlı Azərbaycan Ordusunun Ali Baş Komandanı cənab İlham Əliyevin Azadlıq meydanında Zəfər paradında bəyan etdiyi kimi, hər birimiz bu möhtəşəm anlara şahidlik etdik, Vətəni canlarından çox sevən qəhrəmanlarımızın torpaqlarımızın hər qarışı uğrunda çarpışaraq Qarabağın ən hündür zirvələrində, Şuşada dalğalandırdıqları müqəddəs bayraqlarımızı görüb fəxarət hissi keçirdik.

Ardı 5-ci səh.

# SƏNƏ QURBAN OLUM...

## HƏSRƏTLƏ GÖZLƏDİYİMİZ GÜN, ÇOXDAN ARZUSUNDA OLDUĞUMUZ QƏLƏBƏ!

**Bu günü nə qədər gözləmişik...**

**Bu qələbəni nə qədər arzulamışıq...**

**Bu qələbəyə yetmək üçün nə qədər şəhid vermişik...**

Qələbə intizarı ilə dünyasını dəyişənlər də çox oldu.

İndi nə qədər əmanət qəbirlərdə doğma qəbiristanlığa aparılacağı günü gözləyən cəsədlər var.

Hətta ümidsiz qaldığımız günlər, dizimizi qucaqlayaraq göz yaşı tökdüyümüz anlar da az olmayıb!

*Nə dünya bizi eşitmək istəyirdi, nə də Tanrı kömək edirdi!*

İndi də kövrəlirik, amma bu, kədərdən və qəzəbdən yox, sevincdən, xoşbəxtlik duyğularından doğan göz yaşlarıdır.

**Səni min yaşa, Ali Baş Komandanım!**

**Dünya durduqca dur, mənim türk qardaşlarım!**

**Afərin, Azərbaycan Ordusu, Azərbaycan əsgəri!**

**Sizlər bu xoşbəxt anları, bu sonsuz sevinc və səadəti bizə yaşatdınız!**

Ölmüş ümidlərimizi dirildiniz, ən müqəddəs arzumuza qovuşdurdunuz, dünyanın ən gözəl, qeyri-adi hədiyyəsini - insana fərəh gətirən Qələbə sevincini hər birimizə ərməğan etdiniz!

*Vətən torpağından əziz və qiymətli nə ola bilər?*

*Doğma yurd-yuvaya qayıtmaq sevincini yaşamaq nə böyük bəxtəvərlikdir!*

Ardı 4-cü səh.



# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişaf perspektivləri müzakirə edilib

**Dekabrın 11-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Özbəkistan dövlətinin başçısı Azərbaycan Prezidentini Dağlıq Qarabağda hərbi əməliyyatların başa çatması münasibətilə səmimi-qəlbdən təbrik edib, qardaş ölkənin dost xalqına sülh və firavanlıq arzulayıb. Dövlət başçıları bütün Cənubi Qafqaz regionunda təhlükəsizliyin və sabitliyin təmin ediləcəyinə ümidvar olduqlarını bildiriblər. Söhbət zamanı Özbəkistan-Azərbaycan çoxplanlı münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Dərin məmnuniyyət hissi ilə qeyd edilib ki, pandemiya ilə bağlı mürəkkəb dövrdə göstərilən qarşılıqlı dəstək iki dövlət arasında çoxəsrlik dostluğu və əməkdaşlığın strateji xarakter daşıdığını bir daha nümayiş etdirir.

Dövlət başçıları qarşılıqlı ticarətin həcminin artırılmasına, sənaye və kənd təsərrüfatı, energetika, nəqliyyat və logistika, turizm və digər sektorlarda aparıcı müəssisələrin kooperasiyasının genişlənməsinə yönəlmiş birgə proqramların və layihələrin fəal surətdə həyata keçirilməsinin vacibliyini ayrıca qeyd ediblər. Tərəflər regionlararası və mədəni-humanitar mübadilələri intensiv şəkildə davam etdirməyə hazır olduqlarını təsdiqləyiblər.

Söhbət zamanı Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev qlobal və regional strukturlar çərçivəsində sıx dialoq saxlamaq barədə razılaşıb, yüksək səviyyədə gələcək ikitərəfli və çoxtərəfli tədbirlərin cədvəlini nəzərdən keçiriblər.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycanın özü qədər əbədi

# Vətən savaşında tarixi Zəfər

## Heydər Əliyevdən İlham Əliyevə...



**Ölkəmizin Dağlıq Qarabağ və ətraf ərazilərində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsidir. Tarixin ən müxtəlif dövrlərində Səfəvilərdən Nadir şaha və İosif Stalinə qədər azərbaycanlıların iştirak etdikləri müharibə və yürüşlərdə qazanılmış qələbələrdən heç birində Azərbaycan faktoru indiki qədər mühüm yer tutmamış, ümummilli əhəmiyyət kəsb etməmişdir.**

Dağlıq Qarabağda və ətraf rayonlarda qazanılmış böyük Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Ona görə də bu müharibə haqlı olaraq xarakteri etibarilə Vətən müharibəsi adlandırılır. Bu müharibənin qalibləri Ali Baş Komandan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və müzəffər Azərbaycan Ordusu, Azərbaycan əsgəridir.

Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin düşmən əsarətindən xilas edilməsinin ilkin təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi iştirak etdiyi bütün beynəlxalq tədbirlərdəki çıxışlarında Dağlıq Qarabağın xalqımıza məxsus olmasını bəyan etmiş, bu münaqişənin ilk növbədə sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunmasına tərəfdar olduğunu, dialoqla tarixi ədaləti bərpa etməyə səy göstərdiyini bildirsə də, müharibə yolu ilə də qələbəyə nail olmaq variantını nəzərə çarpdırmışdır.

Ardı 7-ci səh.



# "Zəfər və qürur günü"

Vətən müharibəsində Qələbəyə həsr olunmuş parad Türkiyə mediasının əsas gündəm mövzusu oldu




Bax: səh. 8

# Hərbi vəziyyətin ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı və 8-ci maddələrinə əsasən **qərara alıram:**

1. "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının bütün ərazisində elan edilmiş hərbi vəziyyət 2020-ci il 12 dekabr saat 00:00-dan ləğv edilsin.
2. Bu Fərman təsdiq olunması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsindən irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2020-ci il*

# "Hərbi vəziyyətin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 8-ci bəndinə və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Hərbi vəziyyətin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 dekabr tarixli, 1201 nömrəli Fərmanı təsdiq edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin sədri***

*Bakı şəhəri, 11 dekabr 2020-ci il*

# Heydər Əliyevin vəsiyyəti yerinə yetirildi

**2020-ci ilin sonlarına doğru Azərbaycan xalqı dövlətçilik və müstəqillik tarixini möhtəşəm bir hadisə ilə şərəfləndirdi.**

44 gün davam edən Vətən savaşında rəşadətli ordumuz təcavüzkar Ermənistanı döyüş meydanında məğlub edərək işğala son qoydu, dövlətimizin ərazi bütövlüyünü bərpa etdi.

## İlham Əliyev: "Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!"

2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edən Ulu Öndər Heydər Əliyev deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Heydər Əliyevin ən böyük arzuları işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, bütün məcburi köçkünlərin doğma yurdlarına qayıtması idi. Heydər Əliyev Azərbaycanı daha güclü etmək, xalqımızın daha gözəl günlərini görmək istəyirdi.

Ardı 7-ci səh.

# “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulanın ikinci abzasından “və “Hərbi vəziyyət elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrasının təmin olunması” sözləri çıxarılsın.

2. 6.5-ci bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 6.6-cı bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm Prezident İlham Əliyev!

Ali rəhbərliyinizlə Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı sayəsində qazanılmış böyük Zəfər münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Cəmi 44 gün davam edən və Azərbaycanın müzəffər Ordusunun yaratdığı şanlı dastanı vətəndaş cəmiyyəti institutu olan Mərmərə Qrupu Vəqfi adından alqışlayır, bu zəfərin daimi olmasını diləyirik.

Bu möhtəşəm bayramın sevincini Türkiyə ilə bölüşməyinizi də böyük qədirbilənlik kimi dəyərləndiririk.

Hörmətli cənab Prezident, Siz 30 il davam edən işğala 44 gün ərzində son qoyaraq Qarabağa sülh və sabitlik gətirdiniz.

Zati-alinizi və Sizin şəxsinizdə azərbaycanlı qardaşlarımızı bir daha təbrik edirik.

*Ən dərin ehtiramlarımla,*

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm cənab Prezident!

Beynəlxalq Davamlı Sülh və İnkişaf Fondu (IFSPD) adından Dağlıq Qarabağ regionunda tarixi əhəmiyyət kəsb edən sülhü alqışlayır, Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırırıq.

Ümidvar olduğumuzu bildiririk ki, atəşkəs haqqında Sizin qürurla imzaladığınız razılaşma Dağlıq Qarabağda sabitlik və firavanlıq erasına gətirib çıxaracaq, regionda və bütün dünyada sülhə, inkişafa və əməkdaşlığa şərait yaradacaq.

Beynəlxalq Davamlı Sülh və İnkişaf Fondu dünyanın qırx ölkəsindən görkəmli ziyalıları, alimləri, ictimai xadimləri, diplomatları və ekspertləri bir araya gətirən beynəlxalq qeyri-hökumət təşkilatı kimi öz fəaliyyətini, ilk növbədə, sülhün təmin edilməsinə, dialoqun, qarşılıqlı anlaşmanın, xalq diplomatiyasının, multikulturalizm dəyərlərinin inkişafına; regional və beynəlxalq təhlükəsizliyə təhdid və təhlükələrin təhlilinə; münaqişələrin qarşısının alınması və nizamlanması üçün beynəlxalq səylərə kömək göstərməyə yönəldib. Bununla əlaqədar fondumuz Dağlıq Qarabağ mübahisəsinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının Azərbaycanın suverenliyini və ərazı bütövlüyünü, habelə beynəlxalq sərhədlərin toxunulmazlığını təsdiq etmiş qətnamələrinə uyğun şəkildə həll edilməsini ardıcıl olaraq dəstəkləyib.

İnanırıq ki, Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə əldə olunan razılaşma Dağlıq Qarabağ münaqişəsinin uzunmüddətli və tam həlli, eləcə də məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtmaları üçün zəruri şərait yaradacaq.

Zati-aliləri, biz Sizə və bütün azərbaycanlılara bir daha səmimi-qəlbdən ölkənizdə və onların evlərində sülhün və firavanlığın bərqərar olmasını arzu edirik.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımızı qəbul edin.

***Biserka YEVTİMİYEVİÇ,***
***IFSPD-nin prezidenti,***
***Esma SİRBUBALO,***
***IFSPD-nin icraçı direktoru***

# “Zəfər paradı Qələbəmizi bütün dünyaya nümayiş etdirdi”



**Dekabrın 10-da keçirilən möhtəşəm Zəfər paradı Azərbaycanın gücünü və tarixi Qələbəmizi bütün dünyaya bir daha nümayiş etdirdi. Zəfər paradı müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 gün davam edən “Dəmir yumruq” hərbi əməliyyatında qazandığı tarixi Qələbənin təcəssümü oldu.**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Sədr müavini qeyd edib ki, şanlı Ordumuz işğal altında olan ərazilərimizi birdəfəlik işğaldan azad etməklə düşmən üzərində misli görünməmiş Qələbə qazandı. 30 il həsrət qaldığımız Vətən torpaqlarında indi artıq üçrəngli Azərbaycan bayrağı dalğalanır ki, bu da hər birimizə böyük qürur və fəxarət hissi yaşadır.

“Zəfər paradında nümayiş etdirilən texnikalar, eyni zamanda dövlət başçısı tərəfindən hərbi sahəyə göstərilən diqqət və qayğının nəticəsidir. Ordumuzun maddi-texniki bazasının zənginliyi, istifadəsində olan texnika və silah-sursatın bir hissəsi paradda əyani şəkildə nümayiş etdirildi. Hər kəs Azərbaycan Ordusunun arsenalının müasir silahlarla təchiz edildiyinin əyani şahidi oldu. Ölkəmizin 44 günlük Vətən müharibəsi zamanı göstərdiyi döyüş taktikası, istifadə olunan texnikalar bütün dünyada maraqla izlənilirdi. Bu gün iftixarla deyə bilərik ki, Azərbaycan Ordusu hərbi əməliyyatlar zamanı ən yüksək səviyyədə innovativ yenilikləri tətbiq edən ordudur”, - deyə Adil Əliyev qeyd edib.

O bildirib ki, paradda nümayiş etdirilən silahlar dostlarımızda rahatlıq, düşmənimizdə isə qorxu yaradır. Məlumdur ki, 44 günlük Vətən müharibəsində apardığımız azadlıq mübarizəsi zamanı silah-sursatını qoyub qaçan, fərarilik edən işğalçı Ermənistan ordusuna məxsus xeyli texnika və silah-sursat hərbi qənimət olaraq götürülübdür. Döyüşlərdə Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın xeyli hissəsi məhv edilib, saz vəziyyətdə ələ keçirilənləri isə qənimət olaraq Azərbaycan Silahlı Qüvvələrinin sərəncamına verilibdir. Əminik ki, o texnikaların yerini doldurmaqda Ermənistan hakimiyyəti xeyli çətinlik çəkəcək. Bakının Azadlıq meydanından keçən hərbi texnikaların sırasında vaxtilə Ermənistana məxsus olan texnikaların da yer alması sevindirici məqam idi. Bu, milli qürur və iftixar doğururdu.

Sədr müavini deyib: “Azərbaycan xalqı qardaş Türkiyə ilə birlikdə Bakının Azadlıq meydanında möhtəşəm Qələbəsinin Zəfər paradını keçirərkən Ermənistan hələ də daxili çaxnaşmalarla, etiraz mitinqləri ilə çalxalanırdı. Hadisələrin gedişi göstərir ki, 44 günlük müharibədəki acı məğlubiyyət Ermənistanın və onun havadarlarının onilliklər boyunca yürütdükləri təcavüzkar siyasətin süqutudur. Bir məqamı da qeyd edək ki, Ermənistanın faşist hakimiyyəti üzərində Qələbə qazanmaqla Azərbaycan dövləti bu günə qədər icra edilməyən BMT qətnamələrini icra etdi. Kapitulyasiya aktı Ermənistanı diz çökməyə və işğal altında saxladığı Azərbaycan torpaqlarını qaytarmağa məcbur etdi. Ermənistan hər addımda kobud şəkildə pozduğu beynəlxalq humanitar hüququn prinsiplərinə riayət etməyə məcbur edildi. Əlbəttə, bu məsələ yalnız Ermənistanın məğlubiyyəti ilə bitməyəcək, işğalçı Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktlarına və çoxsaylı hərbi cinayətlərə görə də beynəlxalq hüquq qarşısında cavab verəcək”.

Qeyd olunub ki, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Zəfər paradını izləməsi, həmçinin ölkələrimiz arasında müxtəlif sahələrə dair bir sıra mühüm sənədlərin imzalanması Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlığın daha bir əyani təzahürü oldu.

“Zəfər paradında xalqımızın yaşadığı qürur yaddaşlara əbədi həkk olundu. İndi əminliklə deyə bilərik ki, artıq tarixi bir missiya başa çatdı və Qarabağ problemi beynəlxalq hüququn tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edildi. Bizə bu Qələbəni yaşadan müzəffər Ali Baş Komandan, rəşadətli Azərbaycan Ordusuna, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq!

Zəfərimiz mübarək olsun!”, - deyə parlament sədrinin müavini vurğulayıb.

## Milli Məclisin iclasında

# Zəfər paradı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı

**Sahibə QAFAROVA:** “Bizim rəşadətli ordumuz, peşəkar əsgər və zabitlərimiz, xalqımızın arxalandığı müdrik rəhbərimiz var”





**Dekabrın 11-də Milli Məclisin növbəti iclası keçirildi. İclası açan Milli Məclisin sədri Sahibə Qafarova ilk olaraq Azadlıq meydanında keçirilən Zəfər paradı ilə bağlı fikirlərini bildirdi.**

Qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən Zəfər paradı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Vətən müharibəsində işğalçı Ermənistan silahlı qüvvələrini darmadağın edərək dövlətimizin ərazi bütövlüyünü bərpa etmiş, döyüş meydanında nəyə qadir olduğunu göstərmiş Azərbaycan Ordusunun əzmini və qüdrətini bütün dünya bir daha gördü.

Milli Məclisin sədri Sahibə Qafarova daha sonra dedi: “Paradda Türkiyə Cümhuriyyətinin siyasi və dövlət xadimlərinin, əsgər və zabitlərinin iştirakı bayram əhvali-ruhiyyəsini daha da artırdı. Qarabağ uğrunda qurtuluş savaşının ilk saatlarından Türkiyə qardaş ölkə olaraq siyasi-diplomatik və mənəvi dəstəyi ilə Azərbaycanın yanında yer almışdır. Türkiyənin bu möhtəşəm tədbirdə bizimlə birgə olmasının çox dərin mənası var. Azərbaycanla Türkiyə dost və qardaş ölkələrdir, aralarında olan münasibətlər bir millətin iki dövləti arasındakı münasibətlərdir. Möhtərəm Prezidentimizin dediyi kimi, “Azərbaycanla Türkiyənin birliyi artıq reallıqdır”.

Hərbi paradda nümayiş etdirilən ən müasir hərbi texnika, o cümlədən raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, təyyarələr, hərbi gəmilər Azərbaycan dövlətinin hərbi qüdrətini nümayiş etdirməklə yanaşı, həm də onu göstərdi ki, bundan sonra heç kəs bir daha Azərbaycanla güc və təzyiq dili ilə danışa bilməz. Bizim rəşadətli ordumuz, peşəkar əsgər və zabitlərimiz, xalqımızın arxalandığı müdrik rəhbərimiz var.

Eşq olsun müzəffər Ali Baş Komandan İlham Əliyevə!

Eşq olsun qəhrəman Ordumuza!

Qarabağ Azərbaycandır!”

Daha sonra parlamentin sədri bildirdi ki, bir neçə gün əvvəl Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun - “YAŞAT” fondunun yaradılması haqqında fərman imzalayıb. Bu fondun yaradılması cəmiyyətimizdə birlik və həmrəyliyin, yardımlaşma ruhunun daha da güclənməsinə töhfə verəcək. Milli Məclis bu cür humanitar aksiyalarda həmişə fəal iştirak edib. Sahibə Qafarova Milli Məclisin deputatlarını, Aparatının və İşlər İdarəsinin əməkdaşlarını bu nəcib təşəbbüsə qoşulmağa, yaradılmış yeni fonda könüllü surətdə maliyyə vəsaiti köçürməyə dəvət etdi.

İclasın gündəliyi təsdiqləndikdən sonra Milli Məclisin sədri Sahibə Qafarova dedi ki, ilk iki məsələ Milli Məclisin qərar layihələridir. Diqqətə çatdırıldı ki, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il dekabrın 12-də saat 00:00-dan “Hərbi vəziyyətin ləğv olunması haqqında” Fərman imzalayıb və təsdiq edilmək üçün Milli Məclisə göndərilib.

Bu məsələ barədə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovun məlumatı dinlənildikdən sonra qərar layihəsi səsə qoyularaq təsdiqləndi.

Sonra Azərbaycan Respublikası Hesablama Palatasının sədrinin təyin edilməsi haqqında məsələ müzakirəyə çıxarıldı. Milli Məclisin sədri dedi ki, qanunvericiliyə uyğun olaraq Hesablama Palatasının sədri vəzifəsinə Vüqar Gülməmmədovun namizədliyini irəli sürüb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin məlumatı dinlənildikdən sonra deputatlar Vüqar Gülməmmədovun yenidən Hesablama Palatasının sədri təyin edilməsi barədə qərar layihəsini səsə qoyaraq təsdiqlədilər.

Vüqar Gülməmmədov ona göstərilən etimada görə təşəkkürünü ifadə etdi və var qüvvəsi ilə bu etimadı doğrultmağa çalışacağını bildirdi.

Daha sonra gündəlikdəki digər məsələlər müzakirə olundu.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi barədə məlumat verdi. Bildirdi ki, təklif olunan dəyişiklik bank sisteminin inkişafına xidmət edir və həm dövlət, həm də özəl bankların eyni rəqabət mühitində fəaliyyət göstərməsinə şərait yaradacaq. Dəyişiklik səsə qoyularaq birinci oxunuşda qəbul olundu.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəlikdəki digər iki məsələni - “Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri barədə məlumat verdi. Qeyd etdi ki, ölkəmizdə 2016-cı ilin martından tətbiq olunan əmanətlərin tam sığortalanması qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyinin qorunmasında, bank sistemində sabitliyin tam təmin edilməsində, əmanətçilərin bank sisteminə etibarının artırılmasında mühüm rol oynayıb. Bildirildi ki, 4 il 9 ay ərzində qüvvədə olan bu qanunun müddəti iki dəfə uzadılıb, sonuncu müddət cari ilin dekabrın 4-də başa çatıb. Təqdim olunmuş layihədə qanunun qüvvədə olma müddətinin 2021-ci ilin 5 aprel tarixinədək uzadılması təklif olunur.

Komitə sədri onu da qeyd etdi ki, beynəlxalq təcrübə əmanətlərin tam sığortalanması sxemindən çıxış üçün effektiv strategiyanın olmasının vacibliyini göstərir. Bununla əlaqədar “Əmanətlərin sığortalanması haqqında” qanun layihəsində fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləğinin 30 min manatdan 100 min manata (xarici valyutada 100 min manat ekvivalentinədək) artırılması təklif olunur. Bu müddəa 2021-ci ilin 5 aprel tarixindən qüvvəyə minəcək. Həmçinin fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitlərinin sığortalanması (kompensasiya məbləği 20 min manat müəyyən edilməklə) təklif olunur.

Yeni qanun layihəsinə görə, notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitlərinin tam məbləğdə sığortalanması da nəzərdə tutulur ki, bu dəyişiklik notariuslar vasitəsilə həyata keçirilən alqı-satqı əməliyyatları, xüsusilə ev alqı-satqısı zamanı maliyyə xidməti istehlakçılarının hüquqlarının qorunmasını özündə ehtiva edir.

Komitə sədri Zahid Oruc, deputatlardan Əli Məsimli, Vüqar Bayramov, Aydın Mirzəzadə, Qüdrət Həsənquliyev və Rüfət Quliyevin fikirləri dinlənildikdən sonra komitə sədri Tahir Mirkişili qaldırılan məsələlərə münasibət bildirdi. Hər iki layihə ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda təsdiq olundu.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verdi. Bildirdi ki, sentyabrın 27-dən başlayan 44 günlük müharibə ilə Azərbaycan Ordusu müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalqımıza unudulmaz zəfər bəxş edib. Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər də bu tarixi günlərin əbədiləşdirilməsi ilə bağlıdır.

Belə ki, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər dövlət başçısının 2 dekabr 2020-ci il tarixli “Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” və 3 dekabr 2020-ci il tarixli “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” sərəncamlarından irəli gəlib. Layihəyə əsasən Əmək Məcəlləsinin 105-ci maddəsində nəzərdə tutulan bayram günlərinin siyahısına 8 noyabr - Zəfər günü də əlavə edilir və qeyri-iş günü olan bayram günlərinə aid edilir. Digər bir dəyişikliklə isə Məcəlləyə yeni - 106.1-ci maddə əlavə edilir: “Hər il sentyabrın 27-si Azərbaycan Respublikasının işğal altındakı torpaqlarının azad edilməsi uğrunda həlak olan şəhidlərin xatirəsini yad etmə günü - “Azərbaycan Respublikasında Anım Günü”dür. Həmin gün iş günü hesab edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və “Bədən tərbiyəsi və idman haqqında”, “Peşə təhsili haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri ilə bağlı məlumat verən Mill Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bildirdi ki, birinci layihəyə edilən dəyişikliklər texniki xarakter daşıyır, qanundakı terminlərin dəqiqləşdirilməsi, təhsil haqqında dövlət sənədlərinin verilməsi sahəsində elektron informasiya sistemlərinin tətbiqini nəzərdə tutur.

Komitə sədri “Bədən tərbiyəsi və idman haqqında”, “Peşə təhsili haqqında”, “Ümumi təhsil haqqında” qanunlarda dəyişikliyin isə qanunvericiliyin təkmilləşdirilməsi, peşə təhsili və ümumi təhsil haqqında dövlət sənədlərinin müvafiq qayda ilə “Təhsil Mərkəzləşdirilmiş İnformasiya sistemi” üzərindən formalaşdırılması məqsədilə hazırlandığını diqqətə çatdırdı.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin birinci oxunuşu barədə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov məlumat verdi. Bildirdi ki, bu dəyişikliklər ölkəmizdə ticarətin daha da inkişafı üçün malların gömrük rəsmiləşdirilməsində vaxt itkisinin minimuma endirilməsi və təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Dəyişikliklər xarici ölkələrin qeydiyyatında olan avtonəqliyyat vasitələrinin ölkəmizə daxil olması zamanı yol vergisinin ödənişinə sərf olunan vaxt itkisini azaldacaq.

Hər iki qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Gündəliyin son iki məsələsi - Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi barədə (birinci oxunuş) və “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri haqqında Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Diqqətə çatdırıldı ki, nəzərdə tutulan dəyişikliklər karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar olaraq Milli Məclisin iclaslarının, habelə Milli Məclisin komitə və komissiyalarının iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi məsələlərini özündə əks etdirir.

Deputatların fikirləri dinlənildikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# V.T.Gülməmmədovun Azərbaycan Respublikası Hesablama Palatasının sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Vüqar Tapdıq oğlu Gülməmmədov Azərbaycan Respublikası Hesablama Palatasının sədri təyin edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

*Bakı şəhəri, 11 dekabr 2020-ci il*

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə əlaqədar Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət ediblər.**



YAP-dan AZƏRTAC-a bildiriblər ki, partiyanın nümayəndələri dahi şəxsiyyətin əziz xatirəsini böyük ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan Ümummilli Liderin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.

Dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün nizamnaməsi və proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının yaradıcısıdır.

Əbədiyaşar liderimizin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 760 mindən çox üzvü birləşdirərək respublikamızın aparıcı siyasi qüvvəsi kimi ölkəmizdə YAP-ın sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

# YAP İcra Katibliyində "Heydər Əliyev-müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda videokonfrans keçirilib





**Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Heydər Əliyev-müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda videokonfrans keçirilib.**

YAP-dan AZƏRTAC-a bildiriblər ki, videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, dekabrın 12-də Ümummilli Liderimiz Heydər Əliyevin anım günüdür. Artıq 17-ci ildir ki, xalqımız Ulu Öndərimizin anım gününü qeyd edir, xatirəsini dərin ehtiramla yad edir: "Əvvəlki illərdən fərqli olaraq bu il anım günü tarixi dövrə təsadüf edir. Dekabrın 10-da möhtəşəm qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Torpaqlarımızın, Qarabağın işğaldan azad olunması Ulu Öndərin ən böyük arzularından biri idi. O, Azərbaycan Prezidenti vəzifəsində çalışarkən problemin həlli üçün böyük səylər göstərmişdi. Heydər Əliyev Azərbaycanın qələbəyə doğru atılan addımlarının əsaslarının qoyulması istiqamətində əhəmiyyətli xidmətlər göstərdi. 1996-cı ildə ATƏT-in Lissabon Sammitində bu istiqamətdə ilk diplomatik uğur qazanıldı. Heydər Əliyev bütün dünyaya Qarabağ həqiqətlərini çatdırırdı. Diplomatik fəaliyyətlə yanaşı, güclü ordu quruculuğuna xüsusi diqqət yetirildi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Heydər Əliyevin arzu etdiyi qələbə sevincini xalqa bəxş etmiş oldu. Bu zəfərin əldə olunmasının həlledici amili Prezident, Ali Baş Komandan İlham Əliyev olub. Hərbi, diplomatik və informasiya müstəvisində müharibənin zəfərlə başa çatması istiqamətində görülən bütün işlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirildi. Bu da möhtəşəm Qələbəmizilə nəticələndi".

Əli Əhmədov Azərbaycanın son yüzillik tarixində ən mühüm hadisələri dörd mərhələyə bölərək onların sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını, 1991-ci ildə müstəqilliyimizin bərpa olunmasını, Ulu Öndər Heydər Əliyev tərəfindən müstəqil Azərbaycan dövlətinin qurulmasını və torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən qələbəmizi qeyd edib.

YAP Sədrinin müavini söyləyib ki, Heydər Əliyevin anım gününün qeyd edilməsi Azərbaycanda insanları birləşdirmək gücünə malik olan dövlətçilik ənənəsinə çevrilib. Onun həm doğum, həm də anım gününün insanlar tərəfindən böyük hörmət və ehtiramla qeyd edilməsi, əslində, Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir. Əli Əhmədov qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik illəri ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb. Sovetlər dönəmində onun Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə əzəmətli sıçrayış və yeniləşmə illəri kimi daxil olub. Məhz Ulu Öndərin müdrikliyi, qətiyyəti, təşkilatçılığı sayəsində iqtisadi böhran şəraitində olan respublika ən qısa vaxtda sürətli sosial-iqtisadi yüksəliş mərhələsinə daxil ola bildi. Azərbaycan cəmi bir neçə il ərzində ən geridə qalan respublikadan ən qabaqcıl respublikaya çevrildi, sənayesi inkişaf etdirildi, güclü aqrar-sənaye kompleksi formalaşdı. Azərbaycanın iqtisadi inkişafı xalqın özünəinamını artırdı, milli özünüdərk hissi gücləndi, mənəvi tərəqqi sürətləndi. Elmin, mədəniyyətin, təhsilin inkişafında böyük nailiyyətlər əldə edildi. Bakının milli siması formalaşdırıldı, bütün sahələrdə, o cümlədən idarəçilikdə, mədəniyyətdə milli kadrlar yetişdirildi, milli ruhun yüksəlişi təmin edildi. Bu, əslində, Azərbaycanın intibah dövrü idi və o zaman yaradılan bünövrə ölkənin gələcək taleyində müstəsna rol oynadı.

"Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə büruzə verib. Azərbaycan xalqı əvəzsiz xidmətlərinə görə Ümummilli Lideri xilaskar adlandırmışdır və hesab edirəm ki, bu, tamamilə məntiqli və ədalətlidir. Heç şübhəsiz, Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyin qorunub saxlanması, onun əbədi və dönməz xarakter alması müstəsna olaraq Heydər Əliyevin xidməti sayılmalıdır və sayılır. 1993-cü ildə onun qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və sair bəlalardan xilas oldu. Ölkədə sabitlik və əmin-amanlıq təmin edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı.

Azərbaycanın iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən böyük neft sazişləri imzalandı, iqtisadi, sosial və siyasi islahatlar strategiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başlandı. Yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı", - deyə Əli Əhmədov vurğulayıb.

Baş nazirin müavini Əli Əhmədov daha sonra qeyd edib: "Bu gün istər ölkə daxilində, istər ölkədən kənarda hamı Heydər Əliyevi müstəqil Azərbaycan dövlətinin memarı sayır. Qeyd olunmalı əsas məqam isə odur ki, Heydər Əliyev siyasəti ölkənin inkişafının, müasirləşməsinin və yeniləşməsinin əsasını təşkil edir. 2003-cü ildən bu günə qədər Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında möhtəşəm inkişafında bu siyasət həlledici rol oynayıb və oynamaqdadır. Azərbaycanın müasirləşməsi, yeniləşməsi baş verib, şəhər və kəndlərin siması kökündən dəyişib. Bu gün Azərbaycan dünyanın ən uğurlu gənc dövləti kimi qəbul olunur, onun parlaq gələcəyinə hamı inanır. Ölkəmizin beynəlxalq nüfuzunun artması, mövqeyinin güclənməsi, bir çox beynəlxalq reytinqlərdə ən mötəbər yerlərdə qərar tutması insanların qürur mənbəyinə çevrilib. Azərbaycan inkişaf edir, yenilənir, müasirləşir. Son vaxtlar uğurla həyata keçirilən islahatlar ölkəni inkişafın keyfiyyətcə yeni mərhələsinə aparır. Qarşıda böyük hədəflər dayanır. Azərbaycan Heydər Əliyevin qoyduğu yolla gedərək ən uğurlu ölkə adını hələ uzun illər qoruyacaq".

Tədbirdə çıxış edən YAP Sədrinin müavini Əli Həsənov Ulu Öndər Heydər Əliyev ilə bağlı xatirələrini bölüşüb. O, qeyd edib ki, Heydər Əliyevin zəngin irsi bundan sonra da dərindən öyrənilməli, bu irsin geniş tədqiq olunması üçün akademiya yaradılmalıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova isə bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük dühalardan biridir. O, qeyd edib ki, Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi elə bir tarixi şəxsiyyətdir ki, onun haqqında danışanda yalnız həyatı və fəaliyyəti barədə deyil, dövlət idarəçiliyində təmsil olunduğu və Azərbaycan xalqının mühüm tarixi dövrünü əhatə edən bütöv bir qərinədən bəhs etmək lazım gəlir. Ona görə ki, Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa, onun inkişafına, minilliklərin süzgəcindən keçib gələn milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılmasına həsr edib.

Çıxış edən YAP Siyasi Şurasının üzvü, BDU-nun professoru Şahlar Əsgərov da Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib, Ümummilli Liderimizin aforizmlərindən nümunələr söyləyib.

YAP Gəncə şəhər təşkilatının könüllüsü, Dövlət Aqrar Universitetinin tələbəsi Peykər İbrahimova Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasətinin uğurlarından bəhs edib.

# Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Suriyanın Ras əl-Ayn şəhərində xain terror aktı nəticəsində qardaş Türkiyə Respublikası Jandarma Baş Komandanlığının hərbi qulluqçularının şəhid olması və yaralanması ilə əlaqədar Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akara və baş qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.**

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, başsağlığında Suriyanın Ras əl-Ayn şəhərində xain terror aktı nəticəsində qardaş Türkiyə Respublikası Jandarma Baş Komandanlığının hərbi qulluqçularının həlak olması və yaralanması haqqında xəbərinin dərin təəssüf və kədər hissi doğurduğu qeyd edilib.

Məktubda şəhid hərbi qulluqçulara Allahdan rəhmət, yaralılara isə şəfa diləyi ifadə olunub.

# On yeddi siyasi partiyanın rəhbərləri ilə videokonfrans formatında görüş

**Dekabrın 10-da Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə fəaliyyət göstərən 17 siyasi partiya rəhbərləri ilə videokonfrans formatında görüş keçirib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev, Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Ağ Partiyanın sədri Tural Abbaslı, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz, Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Əliyev, Müstəqil Xalq Partiyasının nəzarət-təftiş komissiyasının sədri Əmir Çıraqəliyev, Azərbaycan Milli Hərəkat Partiyasının sədr müavini Fuad Cəfərov və Gələcək Azərbaycan Partiyasının sədri Ağasif İbrahimov iştirak ediblər.

Görüşdə çıxış edən Ədalət Vəliyev Vətən müharibəsində qazanılmış şanlı Qələbə münasibətilə bütün siyasi partiyaları təbrik edib. O, Azərbaycan Silahlı Qüvvələrinin Zəfər paradının xüsusi dəyərə malik olduğunu vurğulayaraq müzəffər Ordunun gücünü, dövlətimizin qüdrətini bir daha nümayiş etdirdiyini bildirib.

Ə.Vəliyev 30 ilə yaxın davam edən işğala son qoyulması yolunda aparılan mübarizəyə bütün siyasi qüvvələrin Ali Baş Komandanın ətrafında birləşməklə töhfə verməyə çalışmasını, siyasi partiyaların 15 iyul Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən hərbi təxribatla əlaqədar birgə bəyanatını, Vətən müharibəsi ilə əlaqədar milli həmrəyliyi təcəssüm etdirən 27 sentyabr tarixli bəyanatını, 12 və 17 oktyabr tarixli müraciətlərini, eləcə də Fransanın Azərbaycana münasibətdə qərəzli mövqeyinə qarşı 7 oktyabr və 25 noyabr tarixlərində bütün siyasi qüvvələrin birgə etirazını dövlətimizin təməl prinsiplərinin qorunması istiqamətində atılan təqdirəlayiq addımlar olduğunu diqqətə çatdırıb. Dövlətçilik uğrunda həmrəyliyin, milli maraqlar naminə birləşməyin bariz nümunəsini təşkil edən bu yanaşmanın dövlət başçısının siyasətinin nəticəsi olduğunu vurğulayan şöbə müdiri diqqətə çatdırıb ki, ölkədə Azərbaycan Prezidentinin təşəbbüsü və güclü siyasi iradəsi sayəsində siyasi qüvvələr arasında milli vəhdət və sağlam əməkdaşlıq mühiti hələ hərbi əməliyyatlar başlamazdan əvvəl formalaşıb, Azərbaycan cəmiyyətinə, ictimai-siyasi mühitinə sivil yanaşma və harmoniya gətirilib. Bu gün iqtidar-müxalifət münasibətlərinin təməlində dövlətçilik maraqlarının bütün digər maraqlardan üstün tutulması, Azərbaycan xalqının mənafeyinin önə çəkilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü və təcavüzə son qoyulması uğrunda mübarizəsi, eləcə də ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsinə dair məsələlərdə həmrəylik nümayiş etdirilməsi və milli-mənəvi dəyərlərə hörmət edilməsi prinsipləri durur.

Prezident Administrasiyasının rəsmisi dövlətçiliyimizin inkişafı və qüdrətlənməsi naminə siyasi partiyaların milli birliyinin bundan sonra daha da möhkəmlənməsinin və Azərbaycanın düşmənlərinə qarşı daha əzmli olmasının vacibliyini bildirərək Prezident İlham Əliyevin 2020-ci il 24 sentyabr tarixli çıxışından sitat gətirib: "Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafına xidmət edəcək".

Daha sonra Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Əliyev, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev və Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov çıxış ediblər.

Natiqlər öz çıxışlarında Vətən müharibəsində qazanılmış böyük Qələbə münasibətilə müzəffər Ali Baş Komandan İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu təbrik edərək Zəfər gününün təsis olunması və Qələbə paradının keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Həmçinin siyasi partiyaların milli məsələlərdə həmrəyliyinin bundan sonra daha da gücləndirilməsinin və dövlətin təməl prinsiplərinin qorunmasında birlik nümayiş etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Azadlıq Partiyasının sədri Əhməd Oruc xaricdə "Azərbaycanın dostları" adlı cəmiyyətin yaradılması, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə isə sərt karantin dövründə siyasi partiyaların fəaliyyətinin təşkili ilə bağlı müvafiq təkliflər səsləndiriblər.

Görüş iştirakçıları işğaldan azad edilmiş ərazilərdə gələcək fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıb, müvafiq ictimai nəzarət mexanizmlərinin yaradılması, yerli və xarici tərəfdaşlarla məqsədyönlü işin qurulmasına dair təkliflər səsləndiriblər. Həmçinin normal fəaliyyət üçün siyasi partiyaların qərargahla təmin edilməsi məsələsi də müzakirə olunub.

# Britaniya parlamentinin Azərbaycan Qrupu ölkəmizin mövqeyini dəstəkləyən bəyanatla çıxış edib

**Britaniya parlamentinin Azərbaycan Qrupunun sədri Bob Blekmen qrup adından bəyanatla çıxış edib.**

Bəyanat dekabrın 8-də parlamentin Ermənistan Qrupunun üzvlərinin iştirakı ilə keçirilmiş müzakirələr zamanı Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən fikirlərinə cavab kimi yayılıb.

Qrupun sədri Blekmen bildirib ki, Ermənistan Qrupunun üzvləri "Vestminster Holl" formatında keçirilmiş müzakirələrdə Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti barədə təhrif olunmuş və məlumatsız mülahizələr səsləndiriblər. Həmkarlarımızın regionda sülhə dair qayğılarını bölüşürük, lakin müzakirələr zamanı son 30 ildə yüz minlərlə azərbaycanlı məcburi köçkünün yaşadığı humanitar faciədən danışılmayıb. Bu baxımdan həmkarlarımızı bu yaxınlarda Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə həmin köçkünlərin öz evlərinə qayıda biləcəkləri barədə xoş xəbərləri alqışlamağa çağırırıq.

Bəyanatda qeyd edilib ki, aparılan müzakirələr zamanı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı, yüz minlərlə azərbaycanlı mülki şəxsin Dağlıq Qarabağ və ətraf rayonlardan zorla çıxarılması, ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında isə bircə kəlmə də deyilməməsi, sadəcə olaraq, təəssüf doğurur. Həmçinin vurğulanıb ki, Azərbaycan özünün Dağlıq Qarabağ bölgəsindəki etnik erməniləri tamhüquqlu vətəndaşları kimi qəbul etməyə hazır olduğunu təsdiqləyib və ölkənin qalan hissəsi ilə yenidən siyasi, iqtisadi və sosial inteqrasiyanı təmin etmək üçün lazımi imkanlar yaradılacaq. Bəyanatda vurğulanıb ki, Böyük Britaniya hökuməti də öz növbəsində münaqişə ilə əlaqədar prinsipial və konstruktiv mövqe nümayiş etdirib və bu baxımdan hökumətin sülhü dəstəkləyən səyləri Cənubi Qafqazda davamlı sülh və firavanlığın təmin olunmasına töhfə verəcək.








# SƏNƏ QURBAN OLUM...

## HƏSRƏTLƏ GÖZLƏDİYİMİZ GÜN, ÇOXDAN ARZUSUNDA OLDUĞUMUZ QƏLƏBƏ!

*Əvvəli 1-ci səh.*

1




### SƏNƏ QURBAN OLUM, TORPAĞIM!

**Heç bilirsən həsrətini nə qədər çəkmişdim?**
**Heç bilirsən səninçün nə qədər qəribsəmişdim?**
**Heç bilirsən ətrinçün nə qədər darıxmışdım?**

*Bilirəm, səninçün də asan keçməyib bu işğalda, əsirlikdə olduğun dövr!*

*Murdar xislətlilərin ayaqları altında qalmısan, gecə-gündüz tapdalanmısan!*

*Sinənə halal sahiblərinin alın təri tökülməyib!*

*Meşələrin qırılıb qurtarıb, çaylarının qarşısı kəsilərək axarı dəyişdirilib, yeraltı sərvətlərin çapılıb talanıb!*

Azğın düşmən qoynunda fəxrlə saxladığın gözoxşayan evləri-binaları, məscid və türbələri, mədəni-tarixi abidələri dağıdıb yox edəndə, hər tərəfdə erməniləşdirmə aparanda nələr çəkmisən, nələr!

Əlbəttə, sənə də çətin idi, bizə də!
Sən yerindən tərpənə bilmirdin!
Bizim isə yanına gəlmək imkanımız yox idi!

**İndi görüşünə tələsirik, hüzuruna gəlirik, mənim ana Torpağım!**

HƏM DƏ:

- Səni əsirlikdən qurtarmağa;
- Murdar ləpirlərin izlərindən təmizləməyə;
- Yenidən əkib-becərməyə, alın tərimizlə suvarmağa;
- Sinəndəki çalın-çarpaz dağları, yaraları sağaltmağa;
- Qoynunu laləzara çevirməyə, toy-düyün, şadlıq-sevinc dolu bayramlar, şənliklər keçirməyə can atırıq!

**Sənə qurban olum, Torpağım!**
**Nə yaxşı ki, bu həsrətə son qoyuldu!**

2



### SƏNƏ QURBAN OLUM, ORDUM MƏNİM!

**Ordun varsa, yurdun var!**
**Yurduma sən qaytardın məni, əziz, şanlı Ordum!**
Bilirəm, bəzən bizi görəndə sıxılırdın!
Torpaqların işğalında özünü sanki günahkar sayırdın!

*Amma səndə nə təqsir: düşmən hücum edib vətən torpaqlarını kəndbəkənd ələ keçirəndə "bəy"lərin başı hakimiyyət davasına qarışmışdı!*

*Nə əsgər və zabitin qədrini bilən, nə ordu quran, nə də onu silah-sursatla, ərzaq və geyimlə təmin edən vardı...*

Düşmən bu boşluqdan yaxşıca istifadə etdi!
Ulu Öndərimiz geri dönəndə isə artıq hər şey gec idi!

**Amma Heydər Əliyev gecikmədi, Horadiz əməliyyatı ilə xeyli kəndi geri qaytardı!**
**Düşmən də ilk dəfə sənin gücünü gördü!**
**Odur ki, atəşkəsə razı oldu!**

Sonra ATƏT-in vasitəçiliyi ilə "sülh danışıqları" başladı...
Başladı və uzandı...

Amma daha səni unutmadılar, böyük qayğı və diqqət göstərdilər.

**Ali Baş Komandan İlham Əliyev gördüyü çoxcəhətli işlər sayəsində Azərbaycan Ordusunu dünyanın ən güclü əlli ordusu sırasına çıxardı!**

**Birgə təlimlərdə, beynəlxalq miqyaslı hərbi oyunlarda gücünü, peşəkarlığını dəfələrlə nümayiş etdirdin.**

**Xalq səni sevdi, sənə inandı, güvəndi!**

*2016-cı ilin dörd günlük Aprel müharibəsində, bu ilin iyulunda Tovuz istiqamətindəki döyüşlərdə sən öz sözünü dedin!*

*Növbəti təxribat baş verəndə isə əks-hücuma keçərək bütün qüdrətini, imkanlarını ortaya qoydun!*

*Əsgərimin də, zabitimin də, generalımın da qisasını aldın!*

*Çox sağ ol, şəhid balalarımın qanını yerdə qoymadın!*

*Şüşada yallı gedənlərə mərmi və güllə yağışı altında "müharibə yallısı" oynatdın!*

**Sənə qurban olum, Ordum mənim!**

**Düşməni gəldiyi yerədək qovdun, Vətən torpağını azadlığa çıxardın!**

3



### SƏNƏ QURBAN OLUM, A ŞƏHİD BALAM!

Çoxunuz lap cavan idiniz...

Ananız gəlin gətirib, toyunuzu belə görməmişdi...

Övladlarını yetim qoyub gedənləriniz də oldu...

**Vətən çağıranda, vətənə gərək olduğunuzu hiss edəndə heç nəyə baxmadan ələ silah götürərək əsgər libasını geyindiniz!**

**Təkcə ata-ananızın deyil, həm də vətənin övladı olduğunuzu sübut etdiniz!**

**Yaraqlı-silahlı, arxalı-köməkli ermənini üstünə hünərlə, cəsarətlə getdiniz!**

*Nə düşməndən qorxdunuz, nə də ölümdən!*

*Əslində, heç ölməmisiniz də, şəhidlik məqamına, şəhidlik zirvəsinə yüksəlmisiniz!*

"Şəhidlər ölməz, Vətən bölünməz" - sözləri dilinizin əzbəri idi.

Bunu ucadan, qürurla söyləyərdiniz!

**Vətənin bölünməsinə yol verməmək üçün dünyada malik olduğunuz, sizə xas olan ən yüksək dəyərdən - şirin canınızdan belə keçdiniz!**

**Siz söylədiklərinizi əməlinizlə sübut etdiniz, bizlər isə sizi daim anacağıq, qəlbimizdə, xatirəmizdə əbədi yaşadacağıq!**

**Cismən aramızda olmasanız da, mənən daim bizimləsiz, Qarabağın azad edilmiş hər bir kəndinin ən əziz, ən doğma, əbədi sakinlərindən biri sayılırsınız!**

*Sənə qurban olum, a şəhid balam!*

*Sən axıtdığın müqəddəs qanınla Azərbaycan tarixinin qızıl səhifələrini yazırsan!*

*Sən özün qəhrəmanlığın və şücaətinlə həmin tarixin şərəfli səhifələrinə çevrilirsən!*

*Vətən Səni unutmayacaq!*

*Azərbaycan xalqı sənin qəhrəmanlığını və rəşadətini daim yaddaşında hifz edəcəkdir!*

**Sənə qurban olum, a şəhid balam!**

**Məni qınama ki, səninlə birgə döyüşüb, səninlə bərabər ölə bilmədim!**

**Allah sizlərə rəhmət eləsin, şəhid balalarımız!**

**Parçalanmış torpaqlarımızı qanınızla birləşdirdiniz!**

4



### SƏNƏ QURBAN OLUM, TÜRK QARDAŞIM!

Nə böyük ürəyin, nə böyük etibarın varmış!

Ey gözəl İstanbulun əbədi sahibləri, dostla dost, düşmənlə düşmən olmağı hamıdan yaxşı bacaran, böyük türk qardaşım!

**Necə də qüdrətli, əzəmətli şəxsiyyətlər, sərkərdələr yetişdirə bilirsən!**

**Dünənin Atatürkünü, bu günün Rəcəb Tayyib Ərdoğanını!**

*Fəxr edirik: indi dünyada keçəri sözü, xüsusi çəkisi, hamının hesablaşdığı bir dövlətə çevrilmisən!*

*Nə qədər güclənsən də, nə qədər qüdrətlənsən də dostlarını, türk qardaşlarını unutmursan!*

Səninlə Çanaqqalada birgə vuruşduq!

Sənin hünərinlə Bakını daşnak-bolşevik işğalından birlikdə azad etdik!

**Bu gün yenə bir yerdəyik, Qarabağın azadlıq mücadiləsində sizi yanımızda görürük!**

**"İki canda bir ürək" - söyləyən Türkiyə iqtidarı da, müxalifəti də, bitərəfi də haqq işimizi dəstəkləyir, birmənalı şəkildə yanımızda olduqlarını, lazım gələn köməyi göstərəcəklərini bəyan edirlər!**

Çoxları bu dostluğa həsəd aparır, paxıllığımızı çəkənlər də var.

Bu gün heç kim Azərbaycan rəhbərinin yanında Türkiyə Prezidenti barədə heç nə deyə bilməz və ya əksinə, Azərbaycan Prezidenti olmayan yerdə Türkiyə dövlət başçısının yanında Azərbaycan Prezidenti haqqında artıq-əskik danışmağa cəsarət edə bilməz!

Dərhal ağzından vurular, susdurular!

XXI əsr türk əsri olacaq - deyirdilər.

Çoxları bundan qıcıqlanır, narahatlıq duyurdu.

Ancaq sayın Rəcəb Tayyib Ərdoğan Türkiyəni nəhəng dünya dövlətinə, öz sözü, mövqeyi olan, milli maraqlarını təmin edəcək gücə malik dövlətə çevirməyi bacardı!

*Ulu Tanrı Türkiyənin bu mərdliyinin, bu xeyirxahlığının mükafatını gecikdirmir - ona Aralıq və Qara dənizlərində yeni neft-qaz yataqları ərməğan edir.*

*Halal haqqıdır!*

**Sənə qurban olum, Türk qardaşım!**

**Həmişə belə mərd, cəsur, güclü, qüdrətli, dostluqda etibarlı və bizimlə birgə ol!**

*Ardı 5-ci səh.*








# SƏNƏ QURBAN OLUM...

## HƏSRƏTLƏ GÖZLƏDİYİMİZ GÜN, ÇOXDAN ARZUSUNDA OLDUĞUMUZ QƏLƏBƏ!

Əvvəli 4-cü səh.

5

SƏNƏ QURBAN OLUM, ALİ BAŞ KOMANDANIM!



**Tanrı bizi çox ağır sınağa çəkdi: əsl rəhbərimizdən ayrı düşdük, torpaqlarımız işğala məruz qaldı, məşəqqətli məcburi köçkün həyatı yaşamalı olduq...**

**Tanrı bizə rəhm göstərdi: Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı, ölkəni xanlıqlara parçalanmadan və fəlakətlərdən qurtardı, yeni neft strategiyasını hazırlayıb icrasına başladı, daxili və xarici siyasətin konturlarını cızdı, ordu quruculuğunun, qaçqın və məcburi köçkünlərə dövlət qayğısının əsasını qoydu, Azərbaycanın haqq işini dünyaya yaydı...**

**Amma ömür vəfa etmədi, Qarabağın düşməndən azad edilməsi prosesini sona çatdıra bilmədi...**

*Beləliklə, yarımçıq qalmış işləri başa çatdırmaq, xalqın istək və arzularını gerçəkləşdirmək kimi çətin və məsuliyyətli vəzifələrin ağırlığı sənin çiyinlərinə düşdü, mənim Ali Baş Komandanım!*

*Sən nələr etmədin?*

**Bütövlükdə Ulu Öndərimizin və xalqımızın ümid və etimadını ən yüksək səviyyədə doğruldaraq, mümkün olmayanları belə gerçəkliyə çevirdin!**

ETDİKLƏRİNİ SAYMAQLA QURTARMAQ OLMUR...

- Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlətə, dünyada söz sahibinə, transmilli layihələr müəllifinə çevirdin;
- Güclü, ən müasir silahlarla silahlanmış modern ordu yaratdın;
- Azərbaycanın haqq işini dünyaya çatdırmaq üçün BMT-nin tribunasından dönə-dönə, səmərəli şəkildə istifadə etdin;
- Ermənistanın faşist simasını və terrorçu mahiyyətini bütün dünyaya tanıtdın;
- Azərbaycan tarixinin ən cəsətli, ən qüdrətli qərarını qəbul edərək əks-hücum əməliyyatı üçün "irəli" əmrini verdin!

**Sənə qurban olum, Ali Baş Komandanım!**

*Vətən müharibəsinin bütün ağırlığını və məsuliyyətini öz üzərinə götürdün!*

*Bizi həsrətlə gözlədiyimiz qələbəyə çatdıqmaq üçün bütün qüvvə və imkanları səfərbər etdin!*

*Xalqımızı bu zəfərə sən çatdırdın, qələbənin şirinliyini bizə sən daddırdın!*

*Azərbaycanın dostları ilə etibarlı dost, düşmənləri ilə barışmaz düşmən oldun!*

*Həyata keçirdiyin bu nəhəng fəaliyyət sayəsində Azərbaycan tarixinin ən müdrik, ən qüdrətli dövlət xadimi və sərkərdəsi səviyyəsinə yüksəldin!*

**Sənə qurban olum, Ali Baş Komandanım!**

*Bu müharibənin baş sərkərdəsi, baş qəhrəmanı, baş təşkilatçısı Sənsən!*

*Bu qələbənin müəllifi, əldən çıxmış torpaqlarımızı yenidən geri qaytaranı Sənsən!*

**Əvvəlcə ermənini peşman etdin!**
**Sonra məğlub etdin!**
**Daha sonra rüsvay etdin!**
**Ən nəhayət, rəzil vəziyyətinə saldın!**
**Gəldiyi yerədək qovdun!**

*Davamçısı olduğun siyasi kursa, düşünülmüş siyasətinə, yüksək diplomatik istedadına, parlaq natiqlik məharətinə, hərbi bacarığına, böyük səbrinə, ən nəhayət, nifrət və qəzəbinə qurban olum, mənim Ali Baş Komandanım!*

**Bizi bu zəfərə sən çatdırdın!**
**Bizi bu şərəfə sən çatdırdın!**
**Bizə bu xoşbəxt anları, günləri, illəri yaşamağı məhz sən qismət elədin!**
**Mənim qəhrəman Prezidentim!**
**Mənim şanlı Ali Baş Komandanım!**

**Bəxtiyar SADIQOV**

# İqtisadiyyatı güclü olan dövlətin ordusu müzəffər olur

**1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən respublikamızı zaman çox sınağa çəkdi. Həmin vaxt ölkəni idarə edən səbatsız, səriştəsiz vəzifə sahiblərinə kabinet, kreslo şəxsi mənafeyi üçün lazım idi. Ona görə də aralarında bunlar uğrunda mübarizə getdikcə şiddətlənirdi. Nadanların hərəkətlərinin ağrı-acısını isə Azərbaycan xalqı çəkirdi.**



Vəzifə kürsüsü uğrunda canfəşanlıq artdıqca ölkə iqtisadiyyatı çökür, hər yanda hərc-mərclik, anarxiya hökm sürür, hərənin ağzından bir avaz gəlirdi. Bunları görən nankor, namərd qonşumuzun - Ermənistanın torpaqlarımızı əldə etmək iştahası da günbəgün artırdı.

Beləliklə, ərazimizin 20 faizini itirdik, bir milyon soydaşımız öz yurd-yuvasından, tikib-qurduğu rahat ev-eşiyindən didərgin salındı. Çox müsibətlər çəkdi başımız, çox. Elə təkcə Yer üzündə tarixboyu törədilmiş ən dəhşətli faciələrdən olan Xocalı soyqırımını göstərmək kifayətdir.

Torpaqları işğal edilən, böyük problemlər yaşayan, iqtisadi imkanları, güclü ordusu olmayan, daxilində münasibətlər gərginləşən Azərbaycan sanki hər yandan təcrid olunmuşdu. Lakin müdrik Azərbaycan xalqı öz müqəddəratını həll etmək üçün çox düzgün çıxış yolu tapdı - xilaskarını səslədi, imdada çağırdı. Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldi!

Ümummilli Liderin gördüyü təcili, çoxşaxəli və uzaqgörən tədbirlər nəticəsində Azərbaycan dirçəldi, inkişaf yoluna qədəm qoydu, xalqımızın qəddi düzəldi. Xüsusilə "Əsrin müqaviləsi"nin imzalanması ölkədə vəziyyəti böyük sürətlə yaxşılığa doğru dəyişdi. 1999-cu ildə Ulu Öndərin yaratdığı ARDNF-də (Azərbaycan Respublikası Dövlət Neft Fondu) toplanan vəsaitlər ən ümdə problemlərin həllinə yönəldildi. Qarşıda duran mühüm məsələlərdən biri də güclü ordu yaratmaq idi.

Heydər Əliyev ideyalarına sadiq qalan, Ulu Öndərin siyasətini uğurla davam etdirən və bütün sahələrdə onu günün tələbləri baxımından inkişaf etdirən Prezident İlham Əliyev Azərbaycan Ordusunu dünyanın ən güclü, ən nümunəvi ordularından birinə çevirdi! Buna ölkəmizin həyata keçirdiyi nəhəng neft, qaz, nəqliyyat layihələri, məqsədyönlü islahatlar imkan verdi.

Azərbaycan qlobal layihələr gerçəkləşdirdi və bu istiqamətdə işləri uğurla davam etdirir. Hələ keçən əsrin sonunda Bakı-Novorossiysk, Bakı-Supsa kimi neft kəmərləri işə salındı. Ardınca üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan, öz yaradıcısının - Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri çəkildi.

BTC Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verdi. Bu, ümumiyyətlə, bütün regiona xeyir-bərəkət gətirən kəmərdir. Yeri gəlmişkən qeyd edək ki, belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir.

Daha sonra Azərbaycan qazını ixrac edən Bakı-Tbilisi-Ərzurum kəməri fəaliyyətə başladı. Qonşu Gürcüstan və Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunu çəkdik. "Şərq-Qərb nəqliyyat dəhlizi"nin tərkib hissəsi olan bu yolla daşımalar ildən-ilə artır.

Ölkəmiz Rusiya və İranla "Şimal-Cənub nəqliyyat dəhlizi" üzrə uğurlu iş aparır. Bu dəhlizin fəaliyyətinin daha səmərəli olması üçün növbəti addımlar atılır.

TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) üçüncü ildir ki, Azərbaycan qazını uğurla Türkiyəyə nəql edir. İndi layihələrimizin yolu daha uzaq ünvanlaradır. TAP (Trans-Adriatik Qaz Boru Kəməri) artıq hazırdır və tezliklə TANAP-dan qəbul etdiyi mavi yanacağı Avropaya çatdıracaq.

Prezident İlham Əliyev Azərbaycanın sosial-iqtisadi və hərbi qüdrətinin artmasında həyata keçirilən nəhəng layihələrin əhəmiyyətini xüsusi olaraq vurğulamışdır: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi".

Azərbaycanın iqtisadi qüdrəti özünü ordusunun gücündə göstərdi. Ordu üçün lazım olan bütün hərbi texnika, silahlar alındı. Mənfur düşmənə məğlubiyyət yaşadan, onu torpaqlarımızdan həmişəlik qovan da bax, bu müzəffər ordu oldu. Başqa sözlə, Vətən müharibəsində qazandığımız Qələbənin əsas səbəblərindən biri məhz iqtisadi müstəqilliyimiz, iqtisadi cəhətdən heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı olmamağımızdır.

Yeri gəlmişkən, ölkəmizin özünün də güclü müdafiə sənayesi var. Ordumuzun tələbatının böyük hissəsi daxili istehsal hesabına təmin edilir. Belə ki, Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul, o cümlədən ən müasir məhsullar buraxılır.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev dəfələrlə vurğulayıb ki, onun Prezident kimi fəaliyyətində önəm verdiyi bir nömrəli məsələ ordu quruculuğudur. Bu il noyabrın 8-də - Şuşanın düşmən tapdağından alındığı gün Şəhidlər xiyabanından Azərbaycan xalqına müraciət edərkən Prezident bunu bir daha bildirdi: "Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz".

İqtisadi imkanlarımız işğaldan azad edilmiş şəhər və kəndlərimizi yenidən qurmağa da kömək edəcək. Biz o yerlərə artıq yeni layihələrlə üz tuturuq. Evlərdən əlavə, yeni müəssisələr, məktəblər tikəcək, infrastruktur yaradacaq, yollar çəkəcək, körpülər salacağıq. Aqrar sahədə geniş layihələr gerçəkləşdiriləcək. "Biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq. Bildiyiniz kimi, ilk layihələr artıq icra edilməyə başlanmışdır. Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılmışdır", deyir hər sözünə, hər vədinə sadiq olan müdrik Prezidentimiz.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Dəmir yumruğun Zəfər zərbəsi

## 44 gün ərzində hər gün qələbə müjdəsi aldıq

Əvvəli 1-ci səh.

Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. 30 illik yurd həsrətimiz, ürəklərimizdəki Qarabağ nisgili sona çatdı, yüz minlərlə məcburi köçkün qəribçilikdən qurtuldu. Bu möhtəşəm qələbəni xalqımıza Azərbaycan Ordusu ərməğan etdi. Vətənimizin azadlığı uğrunda müzəffər yürüşə çıxan qəhrəman oğullarımız, gecə-gündüz bilmədən, dərə-təpə demədən, soyuq-şaxta hiss etmədən, qorxunu, ölüm xofunu xəyallarına belə gətirmədən mərdmərdanə yürüdülər yağının üzərinə... İllərdir işğal altında olan dədə-baba torpaqlarımızın üzərindən düşmənin nəfəsini kəsdilər, yaralı yurdumuza məlhəm oldular.

Bu 44 günün hər birində şücaətli əsgərlərimiz şanlı tarix yazdılar. Canlarını Vətənə sipər edərək addım-addım, qarış-qarış irəlilədilər, yurdumuzu kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər azad etdilər, bayrağımızı zirvələrdə dalğalandırdılar. Bu 44 gün ərzində hər gün qələbə müjdəsi ərməğan etdilər bizə...

Qarabağ uğrunda döyüşən hünərli oğullarımızın hər birinin müqəddəs amalı qələbəni təmin etmədən geri dönməmək, bu yolda son damla qanlarınadək vuruşub düşməni darmadağın etmək idi.

And içmişdilər, öldü vardı, döndü yox!

Daim irəli atıldılar, sıldırımlar aşdılar, silah-sursat olmadıqda belə, yalın əllə düşmənin nəfəsini kəsdilər, yaralansalar belə döyüşməkdən vaz keçmədilər, mənfurları diz çökdürdülər, dəmir yumruqlarının bir zərbəsi ilə məhvə məhkum etdilər.

Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əzmkar oğullarımızın polad iradəsi sayəsində cəmi 44 gün ərzində haqq savaşımız qələbə ilə başa çatdı, tarixi ədalət zəfər çaldı...

İndi isə növbə bu qəhrəman oğullarımızı görmək, onlarla yaxından tanış olmaq idi...

Dekabrın 10-da bütünlüklə Azərbaycan xalqı bu şir ürəkli qəhrəmanlarını fəxr, qürur hissi ilə seyr etdi, hər birinə minnətdarlıq duydu...

Sıra-sıra, cərgə-cərgə qələbə əzmiylə addımlayan qartal baxışlı igidlərimiz gözlərimizin önündən keçib getdikcə, sanki biz də 30 illik o zülməti yararaq, onlarla bərabər işıqlı sabahlara irəlilədik. Xocalının qisasının alındığı, günahsız insanlarımızın, körpələrimizin qanının yerdə qalmadığı üçün mənəvi dinclik hiss etdik...

Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin ruhunun şad olduğunu bildik...

Qorxmaz oğullarımızın darmadağın etdiyi düşmən texnikalarının nümayişi isə bir başqa zövq verdi hər birimizə...

Azərbaycan dəmir yumruğunun qarşısında heç bir gücün, silahın, sursatın dayana bilməyəcəyini göstərdi. Cənab Prezident İlham Əliyevin Zəfər Paradında vurğuladığı kimi: "...Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

Azərbaycan Ordusu Zəfər paradında hərbi gücünü nümayiş etdirdi, eyni zamanda bütün beynəlxalq aləmə mesajını çatdırdı və bildirdi ki, ölkəmizə qarşı istənilən təhdid və hücumların qarşısını ala biləcək qüdrətli Ordumuz, bu Orduya rəhbərlik edən qətiyyətli sərkərdəmiz var...

Və bütün dünyaya bir daha hayqırdı ki, "Qarabağ Azərbaycandır və nida"...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Vətən müharibəsini şərəfləndirən Zəfər paradı

**Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlanan Vətən müharibəsi Dağlıq Qarabağ da daxil olmaqla, işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələndi. 44 gün davam edən bu savaş tariximizin parlaq səhifəsi olmaqla, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Ötən 17 ildə möhtəşəm uğurlara imza atan, respublikamızı yüksəldən İlham Əliyev Azərbaycanın yeganə ağrılı probleminə də son qoydu.**







## Çoxdan gözlədiyimiz tarix

Azərbaycan xalqı işğaldakı torpaqlarımızın azad ediləcəyi günü çoxdan gözləyirdi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm İlham Əliyevin davam etdirdiyi bu siyasətin nəticəsində günlərin birində torpaqlarımızın azad ediləcəynə hər bir azərbaycanlı əmin idi. Artıq torpaqlarımız azaddır və dekabrın 10-da Bakı şəhərinin Azadlıq meydanında keçirilən ordumuzun Zəfər paradı şanlı qələbəmizi bütün dünyaya bəyan etdi.

Bu qələbə kimi paradı da xalqımız çoxdan gözləyirdi. Azadlıq meydanında indiyə kimi, neçə dəfə hərbi parad keçirilib. Son hərbi parad Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuşdu. Həmin paradlar göstərmişdi ki, Azərbaycan Cənubi Qafqazın ən qüdrətli ordusuna malikdir və qoşunlarımız döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda görmüşdülər. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda beynəlxalq ictimaiyyət də Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik etmişdi. Təsdiq olunmuşdu ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir və dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var.

Bu paradları izləyərkən hər birimizin ürəyindən bir arzu da keçirdi. Günlərin birində həmin Azadlıq meydanında Zəfər paradının keçirilməsini arzulamışdıq. Bu istəyimizin nə vaxtsa mütləq reallaşacağına inanmışdıq. Ona görə bu gün hər bir azərbaycanlı özünü dünyanın ən xoşbəxt xalqının nümayəndəsi sayır, hər birimiz sevincliyik. Çünki torpaqlarımızın azad edilməsi ilə böyük arzumuz, ən müqəddəs niyyətimiz çin oldu və Azadlıq meydanında Zəfər paradına şahidlik etdik. Prezident İlham Əliyevin dediyi kimi, bu parad tarixi hadisədir: *"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".*

Azərbaycan dövləti həmişə olduğu kimi, müharibə günlərində də öz yanında Türkiyəni gördü. Türkiyə bu günlərdə öz qardaşlıq borcunu ləyaqətlə yerinə yetirdi, Azərbaycanı sonadək dəstəkləyəcəklərini dəfələrlə bəyan etməsi hər bir azərbaycanlını qürurlandırdı. Odur ki, paradda iştirak etmək üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana gəlməsi, o cümlədən Türkiyə hərbçilərinin nümunəvi keçidi xalqımız tərəfindən sevinclə qarşılandı.

## Ordumuz missiyasını rəşadətlə yerinə yetirdi

44 günlük Vətən müharibəsinin hər günü müasir döyüş imkanlarından istifadə edən Azərbaycan Ordusunun müzəffər yürüşü ilə yadda qaldı. Elə bir cəbhə olmadı ki, əsgərlərimiz hücum əməliyyatında ləngisinlər. Elə bir istiqamət olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın. Bununla yanaşı, əsas olan odur ki, bu şanlı qələbəni Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar.

Prezident İlham Əliyevin dediyi kimi, bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir. Onu da qeyd edim ki, İlham Əliyev əks-hücum əməliyyatlarının başladığı ilk günlərdə, şiddətli döyüşlərin getdiyi bir vaxtda - sentyabrın 29-da Mehriban xanım Əliyeva ilə birlikdə yaralanmış hərbçilərlə görüşmüşdü. Döyüşlər bitəndən dərhal sonra da Ali Baş Komandanın Mehriban Əliyeva ilə birlikdə ilk qələbə təbrikini çatdırdığı insanlar hərbiçilər oldu. Bu Azərbaycan Prezidentinin hərbçilərə xüsusi münasibətinin, onlara yüksək diqqətinin növbəti təcəssümüdür.



Dövlət başçısının Vətən müharibəsində əldə edilən parlaq qələbədə hərbiçilərin zəhmətini və fədakarlığını xüsusi qeyd etməsi, onların müalicəsi və xəstəxanadan sonrakı həyatı üçün bütün lazımi tədbirlərin görüləcəyini elan etməsi, hətta onlardan tibbi maskaları çıxarmağı xahiş edərək hamının bu qəhrəmanları üzdən tanımasını istəməsi Ali Baş Komandan kimi İlham Əliyevin hərbiçilərə olan dərin hörmətini, həssas və olduqca səmimi münasibətini göstərir.

Paraddakı çıxışı zamanı Prezident İlham Əliyev bir daha əsgər və zabitlərimizin qəhrəmanlığı barədə danışaraq dedi: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi".

Bu tarixi qələbənin qazanılmasında hərbçilərimizin yüksək vətənpərvərlik hisslərinə, döyüş əzminə malik olmaları böyük rol oynadı. Döyüşlər başa çatandan sonra Ermənistan mənbələri etiraf edirlər ki, Azərbaycan Ordusunun gücü qarşısında erməni əsgərləri cəbhənin bütün istiqamətlərində qaçıblar, kütləvi şəkildə fərarilik ediblər. Bəli, Azərbaycan əsgəri düşmənin üzərinə ölümdən belə çəkinmədən hünərlə, cəsarətlə yürüdü. Bu yolla şəhidlik zirvəsinə ucaldı.

Vətən yolunda şəhid olanların əziz xatirəsi daim uca tutulacaq, onların ailə üzvləri həmişə yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar. Onu da qeyd edək ki, Şuşanın azad edilməsi xəbərini Ali Baş Komandan məhz Şəhidlər xiyabanında çatdırmışdı. Bu xəbəri ilk eşitməyə şəhidlərin haqqı kimi yanaşmışdı. Prezident İlham Əliyevin sərəncamı ilə sentyabrın 27-nin Anım Günü kimi təsis olunması şəhidlərin xatirəsinə göstərilən böyük ehtiramın nümunəsidir.

## İlham Əliyevin qətiyyəti

Bu qələbənin digər mühüm tərəfi Prezident İlham Əliyevin müharibə günlərində nümayiş etdirdiyi yüksək qətiyyət və beynəlxalq təzyiqlərə sinə gərməsi oldu. Haqlı olaraq Azərbaycan ictimaiyyəti İlham Əliyevin qətiyyətini zəfərimizin ən əsas şərtlərindən biri kimi qəbul edir. Döyüşlərin ilk günündən dünya erməniliyi Azərbaycana qarşı təzyiq rıçaqlarını işə saldı, BMT-də qətnamə qəbul etmək istədilər, İlham Əliyevə davamlı zənglər olundu. Hətta Prezidentdən müsahibə alan bəzi xarici KİV təxribatçı sualları ilə ermənipərəst dairələrin sifarişlərini yerinə yetirdi. Lakin hər bir mərhələdə erməni təəssübkeşləri məğlubiyyətə uğradılar. Prezident İlham Əliyev onların hər birinə siyasət və diplomatiya dərsi keçdi. BMT-də Ermənistanın maraqlarına xidmət edən qətnamənin qəbul olunmasının qarşısı məhz İlham Əliyevin diplomatik müdrikliyi sayəsində alındı. Xarici KİV-in əməkdaşları İlham Əliyevin cavabları qarşısında heyranlıqlarını gizlədə bilmədilər.

Noyabrın 8-də Şuşanın azad edilməsi ilə Qarabağ müharibəsinin gedişində ən mühüm hadisə baş verdi. Prezident İlham Əliyevin Zəfər paradındakı çıxışında dediyi kimi, Şuşanın azad edilməsi ilə düşmənin beli qırıldı: *"Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı".*

Şuşanın azad edilməsi ilə Ermənistan hakimiyyəti öz məğlubiyyətini açıq şəkildə etiraf etdi. Buna qədər işğalçı ölkənin siyasi-hərbi dairələri yalan təbliğatla məşğul idilər. Lakin noyabrın 8-dən sonra Azərbaycana məğlub olduqlarını etiraf etdilər və Paşinyanın kapitulyasiya aktına imza atmaqdan başqa yolu qalmadı. Hərbi qələbələrdən sonra imzalanan üçtərəfli bəyanat Azərbaycanın Vətən müharibəsindəki siyasi-diplomatik qələbəsi oldu. Bu sənəd ordumuzun döyüş meydanındakı zəfərini tamamladı. Sənədə əsasən, Azərbaycan Ordusu güllə atmadan Ağdamı, Kəlbəcəri və Laçını işğaldan azad etdi.

Ümumiyyətlə, üçtərəfli bəyanatın bütün bəndləri Azərbaycanın qalib dövlət kimi diqtələrindən ibarətdir. Prezident İlham Əliyev hələ döyüşlərin ilk günlərindən irəli sürdüyü şərtləri Ermənistana qəbul etdirdi. Üstəlik, sənədə əsasən, blokada şəraitində olan Naxçıvanla quru əlaqəsi yaradılacaq.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi qələbəsi vəziyyəti kökündən dəyişib. İndi Azərbaycanın ərazi bütövlüyü təmin olunub, vaxtilə işğal nəticəsində torpaqlarını tərk edən həmvətənlərimiz artıq məcburi köçkün deyillər. Beləliklə, İlham Əliyev sübut etdi ki, söz anlamayan Ermənistanı güc yolu ilə başa salmaq mümkündür. Erməni təəssübkeşləri, xüsusən Fransanın siyasi dairələri Ermənistanın məğlubiyyətini həzm edə bilmirlər. Lakin nə qədər əhəmiyyətsiz sənədlər qəbul etsələr də, Azərbaycanın qələbəsini etiraf etməkdən başqa yolları yoxdur.

*Zəfər paradı Vətən müharibəsinin növbəti şərəfli səhifəsi kimi tariximizi şərəfləndirdi, düşmənlərimizin isə bağrına ox kimi batdı. Qüdrətlənən Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməklə tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etdi.*

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

# Azərbaycan yeni tarix yazdı

**Vətən savaşının qalibi olan Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bu müharibədən sonra bütün dünya Azərbaycanı yenidən tanıdı, qələbəmizə şahidlik etdi. Azərbaycan Silahlı Qüvvələrinin dekabrın 10-da keçirilən hərbi paradı isə xalqımızın Vətən müharibəsindəki zəfərini daha da şərəfləndirdi. Milli Məclisin deputatları bununla bağlı fikirlərini qəzetimizlə bölüşdülər.**









## Ordumuzun Qələbə paradı

**Siyavuş NOVRUZOV,**
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- 44 gün davam edən Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq öz ərazi bütövlüyünü təmin edən Azərbaycan yeni tarix yazdı. Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Parad qəlbi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlının qürur və iftixar mənbəyinə çevrildi. Çünki bu, həm öz torpaqlarını işğaldan azad edən yenilməz dövlətin qüdrətinin, həm də xalqımızın böyük mübarizə əzminin bütün dünyaya nümayiş etdirilməsi idi. Bu, eyni zamanda, müzəffər Azərbaycan Ordusunun gücünü bir daha düşmənə, onun havadarlarına - ermənipərəst dairələrə göstərdi. Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Digər tərəfdən, bu möhtəşəm parad Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının əyani nümunəsi oldu. Bütün dünya bir daha gördü ki, Azərbaycan və Türkiyə bir millətin iki dövlətidir. Bizim dostluğumuz, qardaşlığımız əbədi və sarsılmazdır. İki ölkə bundan sonra da həmrəylik nümayiş etdirəcək, böyük uğurlar qazanaraq tarix yazacaq.

Eşq olsun qüdrətli Azərbaycan dövlətinə və mübariz xalqımıza! Yaşasın Müzəffər Ali Baş Komandanımız! Yaşasın qalib Azərbaycan Ordusu!

## Qalibiyyətimizin və milli qürurumuzun təntənəsi

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:*

- Ərazi bütövlüyünün bərpası məsələsi torpaqları işğala məruz qalmış dövlətlər üçün tarixboyu ən müqəddəs vəzifələrdən biri olub. Bu vəzifənin yerinə yetirilməsi dövləti qaliblər sırasına çıxarıb, onun xalqını daha məğrur edib. Belə bir qürurdoğuran taleni indi Azərbaycan yaşayır. Ermənistanın işğalına son qoyaraq ərazi bütövlüyünü təmin edən xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixinin şərəfli səhifəsini yazdı.

Biz bu qələbəni döyüş yolu ilə qazandıq. Müharibə isə itkisiz olmur. Döyüşlərdə şəhid olan 2873 hərbçimizin xatirəsi qarşısında baş əyirik, onlara Tanrıdan rəhmət diləyirik. Şəhidlərimizin ruhu şaddır. Çünki hər qarışı üçün şərəflə mübarizə apardıqları, uğrunda canlarından keçdikləri Vətən torpaqları artıq işğaldan azaddır. 44 günlük müharibədə Azərbaycan döyüş meydanında Ermənistanı darmadağın etməklə 30 ilə yaxın davam edən işğala son qoydu. Bu qalibiyyətinin fonunda bütün dunya güclü Azərbaycan dövlətini gördü. Beynəlxalq ictimaiyyət xalqımızın öz haqqı uğrunda əzmlə mübarizə aparmaq bacarığına şahidlik etdi. Prezident İlham Əliyev bu Qələbə ilə qalib Azərbaycan dövlətini dünyaya təqdim etdi.

Ona görə də dekabrın 10-da keçirilən Zəfər paradının böyük siyasi, tarixi və rəmzi mənası var. Öncə onu qeyd edim ki, indiyə qədər xalqımız bir neçə dəfə ordumuzun Azadlıq meydanında keçirilən hərbi paradlarına şahidlik edib. Bu paradların hər birində Silahlı Qüvvələrimizin artan hərbi imkanları, qüdrəti nümayiş etdirilib. Həmin paradlar göstərmişdi ki, işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq. Bütün dünya bilirdi ki, sülh danışıqları baş tutmasa, Azərbaycan hərb yolu ilə torpaqlarını azad edəcək. Və həmin gün gəldi, Azərbaycan işğal altındakı torpaqlarını güc yolu ilə, Ermənistanı döyüş meydanında məğlubiyyətə uğradaraqazad etdi.

Bu baxımdan dekabrın 10-da keçirilən hərbi parad fərqli idi. Çünki bu, qələbə paradı idi. Bu, hünər meydanında düşmənin başını əzən Azərbaycan Ordusunun Zəfər keçidi idi. Bu parad bizim tək qalibiyyətimizi deyil, həm də milli qürurumuzu dünyaya nümayiş etdirdi. Başqa qürurverici məqam bu paradda qardaş Türkiyə hərbçilərinin keçidi idi. Bəli, sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığı Vətən müharibəsində bir daha tarixi sınaqdan çıxdı. Türkiyə əsl qardaşlıq nümunəsi ortaya qoyaraq müharibənin ilk günündən Azərbaycanın yanında oldu, dövlətimizin haqq işini özünün milli marağı kimi birmənalı dəstəklədi.

2018-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsinə həsr olunmuş paradda Prezident İlham Əliyev demişdi: "Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır".

Bəli, Prezident İlham Əliyev öz müdrik siyasəti ilə zamanı yetişdirdi və rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad edərək Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Qarabağın tacı Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında üçrəngli bayrağımızı ucaltdı və həmin qələbə bayraqları Zəfər paradında nümayiş etdirildi. Bizə, xalqımıza bu hissi, möhtəşəm qələbə sevincini yaşatdığı üçün cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq.

Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Artıq Prezidentin qeyd etdiyi kimi, Dağlıq Qarabağ problemi yoxdur. Cocuq Mərcanlıdan başlanan Böyük Qayıdış tezliklə işğaldan azad olunmuş bütün rayonlarımızı əhatə edəcək, onların hər biri yenidən qurulacaq və məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıda biləcəklər.

## Azərbaycanı ucaldan qələbə

**Nəsib MƏHƏMMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Vətən müharibəsi işğal altında olan torpaqlarımızın azad edilməsi ilə başa çatdı. Tarixini bu möhtəşəm Qələbə ilə şərəfləndirən Azərbaycan dünyaya öz gücünü, haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi. Bu zəfərlə biz Ermənistanın 30 illik işğalına son qoyduq. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq və bu dəfə qalib dövlət, qalib xalq kimi...

Bu qələbənin altındakı imzanın müəllifi isə İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusudur. İlham Əliyevin qətiyyəti, Ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında səfərbərliyi Vətən müharibəsində Qələbəni təmin etdi. Dekabrın 10-da keçirilən Zəfər paradı ilə xalqımız öz tarixi qələbəsini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu parad hər birimizi qürurlandırdı, duyğulandırdı, qələbəmizlə fəxr etdik. Bu parada səbəb olan qələbə Azərbaycanın bir dövlət olaraq gücünü, qüdrətini, xalqımızın öz haqqı uğrunda mübarizə aparmaq əzmini beynəlxalq ictimaiyyətə bir daha yaxından tanıtdı. Bu qələbə ilə dünya erməniliyinin onilliklər boyu Azərbaycana qarşı apardığı saxta təbliğat iflasa uğradı, "məzlum erməni" obrazı darmadağın edildi.

Bu paradı biz şəhidlərimizin canı, qanı hesabına qazandığımız qələbənin sayəsində keçirdik. Xalqımız, 44 gün davam edən müharibədə 2783 şəhid verdi. Onların hər biri müqəddəs şəhidlik zirvəsinə yüksəlməklə, Azərbaycan xalqının tarixində ən şərəfli səhifə yazdılar. Döyüş yolu izə azad olunmuş torpaqlarımız şəhidlərimizin qanı ilə qarışaraq daha müqəddəs oldu.

Vətən müharibəsi həm də xalqımızın milli birliyinin, öz rəhbəri ətrafında yumruq kimi birləşməsinin təsdiqi oldu. Milliyyətindən, dilindən, dinindən, sosial statusundan asılı olmayaraq xalqımız həmrəyliyin ən mükəmməl nümunəsini yaratdı. Bu həmrəylik həm də azərbaycançılıq ideyasının təntənəsi idi. Bu cür ideya, milli düşüncə və dünyagörüşü ilə silahlanmış Azərbaycan əsgərlərinin döyüş meydanındakı fədakarlıqları qürurverici idi. Onların hər biri qəhrəmandır, qələbəmizin müəllifidir. İlham Əliyevin sərəncamları ilə qələbənin qazanılmasında əməyi olanların bir qrupu orden və adlarla təltif olundular. "Vətən Müharibəsi Qəhrəmanı" adını alan hərbi qulluqçularımızın sırasında 5 nəfər balakənlinin də olması məni çox sevindirdi.

Azərbaycan Ermənistanı yalnız hərb meydanında məğlub etmədi. Bu müharibə ilə işğalçı dövlət həm də tarixinin ən böyük siyasi, iqtisadi və mənəvi zərbəsini aldı. Artıq bir aydan çoxdur ki, Azərbaycan xalqı böyük qələbəni təntənə ilə qeyd edir. Ermənistanda isə bir aydan çoxdur məğlubiyyətdən irəli gələn siyasi qarşıdurma gündən-günə daha da dərinləşməkdədir. Dekabrın 10-da biz ordumuzun Zəfər paradını izləyəndə, Ermənistanda etiraz edən kütlələr hökumət binasına soxulmağa çalışırdılar. Görünən odur ki, Ermənistan siyasi ziddiyyət burulğanından hələ uzun müddət xilas ola bilməyəcək. Onu bu vəziyyətə salan isə Azərbaycandır. Bu ölkə öz işğal siyasətinin nəticəsi olaraq indi öz tarixinin ən əzablı və həm də rüsvayçı dövrünü yaşayır. Bir neçə ay bundan əvvəl Ermənistan rəsmiləri deyirdilər ki, müharibə başlasa, erməni tankları Bakıya gələcək. Bəli, gəldilər, amma qalib Azərbaycan Ordusunun hərbi qəniməti kimi və bu baxımdan 10 dekabr paradı həm də Ermənistanın hərbi məğlubiyyətinin nümayişi kimi tarixə düşdü.

Azərbaycan ATƏT-in Minsk qrupunun danışıqlar masası ətrafında edə bilmədiyini 44 gündə döyüş yolu ilə gerçəkləşdirdi. Ərazi bütövlüyünü təmin edən Azərbaycan xalqı indi torpaqlarına geri dönür. Şuşaya çəkilən avtomobil yolu, Ağdama çəkilən dəmir yolu hələlik başlanğıc olmaqla, İlham Əliyev iradəsinin göstəriciləridir. Bu dönüş möhtəşəm olacaq və işğaldan azad edilmiş ərazilərimiz ən qısa vaxtda öz inkişafları ilə yeni nümunələr yaradacaqlar.

## Zəfər paradı Azərbaycan Ordusunun gücünü bir daha nümayiş etdirdi

**Arzu NAĞIYEV,**
*Milli Məclisin deputatı:*

- Vətən müharibəsinin necə başlanması və necə nəticələnməsi çox mühüm məsələ idi. Bununla bağlı gedən hazırlıqlar, xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsi, erməni ordusunun özü haqqında yaratdığı mifin dağıdılması çox mühüm əhəmiyyət kəsb edirdi. Bu ərəfədə kimin dost, kimin düşmən olduğu da bir daha özünü büruzə verdi. Məhz Türkiyənin Azərbaycanın yanında olması, mənəvi və siyasi dəstəyi çox mühüm əhəmiyyət kəsb edən məsələ idi.

Cənab Prezidentin çıxışında müasir texnikamızın, yüksək texnologiyaya əsaslanan silahlarımızın öz kadrlarımız tətəfindən idarə edilməsi də çox mühüm məsələ kimi qeyd olundu. Bu qələbənin əldə olunmasında təkcə müasir texnologiyalar deyil, Azərbaycan əsgərində olan ruh yüksəkliyi də bir daha özünü göstərdi.

Prezident İlham Əliyevin Zəfər paradında çıxışı xüsusi əhəmiyyət kəsb edən bir sənəddir. Ümumiyyətlə, paradda çox mühüm məsələlərə toxunuldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə hərbçilərinin paradda iştirakı isə xüsusi qeyd edilməlidir.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə gəldikdən sonra dövlətçiliyimizin bütün sahələri ilə yanaşı, ordu quruculuğu sahəsində də çox böyük işlərin görülməsinə başlandı və Azərbaycanın müasir ordusu yaradıldı. Heydər Əliyevin dövlətçilik təcrübəsi bu sahədə də özünü göstərdi. Heç də təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu gün Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə bərpa edib, bütün sərhədlərimizdə Azərbaycan Ordusu durur və bu parad da şəhidlərimizin qanı bahasına başa gəlmiz şanlı qələbənin bariz nümunəsidir.

Bu parad, eyni zamanda bir daha Azərbaycan Ordusunun gücünü, müasir hərbi texnika və silahlarla, o cümlədən müasir PUA-lar, raket sistemləri, hava hücumundan müdafiə sistemləri və digər müasir silah sistemləri ilə təmin olunduğunu göstərdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın özü qədər əbədi

# Vətən savaşında tarixi Zəfər

## Heydər Əliyevdən İlham Əliyevə...

Əvvəli 1-ci səh.

Lissabon sammitində ölkəmizin ərazi bütövlüyünün beynəlxalq ictimaiyyət tərəfindən bir daha yekdilliklə tanınması və Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağdakı ərazilərimizin işğaldan azad edilməsi haqqındakı qətnamələrin yerinə yetirilməsinin dəstəklənməsi Ulu Öndər Heydər Əliyevin apardığı müdrik siyasətin uğurlu nəticəsi idi. Görkəmli dövlət xadimi Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinin formatını müəyyən etmiş, beynəlxalq miqyasda həmin formatın obyektivliyi haqqında ictimai rəy formalaşdırmışdır.

Bu məqsədlə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqil dövlətin milli ordu quruculuğunun əsaslarını yaratmış və silahlı qüvvələrimizin peşəkar kadrlarla, yeni nəsil mütəxəssislərlə, müasir texnika ilə təchiz edilməsi istiqamətində əhəmiyyətli addımlar atmışdır. Ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək və zəruri hazırlıq işlərini aparmaq baxımından vaxt və imkan qazanmaq üçün atəşkəs sazişinə nail olması da Ulu Öndərin tarixi xidmətlərindəndir. Ali Baş Komandan kimi Heydər Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən Horadizin düşməndən azad edilməsi ilə Azərbaycan torpaqlarının müharibə yolu ilə geri alınmasının mümkünlüyü sınaqdan çıxarılmışdır.

Bütün bunlarla bərabər, Azərbaycan xalqının Dağlıq Qarabağda və ətraf ərazilərdə tam və qəti qələbəyə nail olması kimi tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həyata keçirmişdir. Bu məqsədlə Prezident İlham Əliyev, ilk növbədə, Azərbaycan Respublikasını iqtisadi cəhətdən inkişaf etdirilmiş ölkə səviyyəsinə çatdırmaq vəzifəsini uğurla yerinə yetirmişdir. Ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində İlham Əliyev Azərbaycan Respublikasında iqtisadi cəhətdən bütün sahələrdə şaxələnmiş böyük inkişafa nail olmağı təmin etmişdir. Davos İqtisadi Forumu və bir çox nüfuzlu beynəlxalq maliyyə qurumları müstəqil Azərbaycan Respublikasının iqtisadi göstəricilərinə görə regionda və dünyada ən yüksək reytinqə malik olan dövlətlərdən birinə çevrildiyini dönə-dönə, dəfələrlə bəyan etmişlər.

İkincisi, Prezident İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət Dağlıq Qarabağda böyük Qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar: şəxsi heyət arasında azərbaycançılıq, hərbi-vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, ordumuzun ən müasir hərbi texnika ilə silahlandırılması, yüksək ixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana regionda ən güclü orduya sahib olmaq imkanı qazandırmışdır. Dövlət başçımızın fərmanı ilə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin yaradılması və bu qurumun normal iş fəaliyyətinin təşkil edilməsi də Böyük Zəfərin qazanılması yolunda atılmış əhəmiyyətli addımlardan biridir. Hələ on il bundan qabaq Azərbaycan Respublikasının dövlət büdcəsində ordu quruculuğuna, hərbi xərclərə ayrılan vəsaitin Ermənistan Respublikasının ümumi büdcəsindən çox olmasının təmin edilməsi sülh və danışıqlar yolu ilə yanaşı, zərurət yarandığı təqdirdə müharibə versiyasının işə salınmasına dövlət səviyyəsində aparılan hazırlıqların mühüm göstəricilərindən biri idi. Buna görə də hələ neçə illər bundan qabaq ən nüfuzlu beynəlxalq hərbi ekspertlər Azərbaycan Ordusunu bütün əsas göstəricilərinə görə dünyanın ən güclü əlli ordusundan biri hesab etmişdilər. Prezident İlham Əliyev Qarabağ - Vətən müharibəsinə mühüm hazırlıqlardan sonra inkişaf etmiş Azərbaycan Ordusu və vətənpərvər Azərbaycan əsgəri ilə başlamışdır. İlham Əliyev bundan əvvəl 2016-cı ildə Lələtəpədə və 2018-ci ildə Naxçıvanda uğurlu döyüş əməliyyatlarına rəhbərlik edərək, torpaqlarımızın bir hissəsini düşməndən azad etməyə nail olmaqla sonralar başlayacağı Vətən müharibəsinin məşqlərini keçmişdir. Cəbhədəki uğurlu Lələtəpə və



Naxçıvan əməliyyatları və Çocuq Mərcanlı qəsəbəsinin salınması vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Horadizi düşməndən xilas edərək, təmas xəttində normal həyatın bərqərar olunmasının yaradıcı şəkildə davam etdirilməsi kimi də mühüm əhəmiyyətə malik hadisə idi.

Üçüncüsü, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması, planetimizdə etibarlı müttəfiqlərin və tərəfdarların qazanılması da Qələbəyə doğru gedən yolun əhəmiyyətli hadisəsidir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına, Avropa Birliyi Nazirlər Şurasına sədrlik etməsi, dünya ölkələri, xüsusən region dövlətləri ilə qurulmuş və inkişaf etdirilmiş əlaqələrə nail olması və sair kimi mühüm addımlar ölkəmizin beynəlxalq miqyasdakı mövqelərini daha da möhkəmləndirmişdir. Beynəlxalq təşkilatlar və region dövlətləri arasında ölkəmizin qazandığı böyük etimad gələcək Böyük Zəfərin əldə edilməsinin əsas faktorlarından biri olmuşdur.

Beynəlxalq münasibətlərdə illər uzunu birtərəfli qaydada seçilmiş hər hansı ölkələr qrupu ilə deyil, Şərqdə də, Qərb masştabında da demək olar ki, bütün ölkələrlə sağlam əlaqələr yaradan Azərbaycan Respublikasının qazandığı yüksək etimad Vətən müharibəsində dövlətimizin haqlı mövqeyinin düzgün qavranılmasını və dəstəklənməsini şərtləndirmişdir.

Dördüncüsü, təməli böyük uzaqgörənliklə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş “Bir millət - iki dövlət” düsturu əsasında möhkəmləndirilmiş Azərbaycan-Türkiyə birliyi və əməkdaşlığı da Vətən müharibəsindəki Zəfərin ən mühüm amillərindəndir. Vaxtilə Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisində səsləndirdiyi “Tək millət - iki dövlət” kəlamı əvvəlcə hər iki ölkədə atalar sözünə çevrilmiş, tədricən daha da dərinləşərək iki qardaş ölkə arasındakı münasibətlərin strategiyası statusu qazanmışdır.

Beşincisi, dünyanın istənilən ölkəsi ilə müqayisədə Azərbaycan Respublikasında yaranmış çox möhkəm xalq-iqtidar birliyi də Böyük Zəfərə təminat vermişdir. Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin ən böyük dayağı Azərbaycan xalqı olmuşdur. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, əlli milyondan çox Azərbaycan xalqı Vətən müharibəsində birmənalı şəkildə Prezident İlham Əliyevi yüz faiz dəstəkləmişdir. Bu məqamda Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Dünya Azərbaycanlılarının qurultaylarının keçirilməsi, diaspor təşkilatlarının yaradılması və fəaliyyətinə dövlət səviyyəsində dəstək verilməsi etibarlı təməl rolunu oynamışdır.

Çoxmilyonlu Azərbaycan xalqının lideri kimi İlham Əliyevin möhkəm siyasi iradəsi, sərkərdəlik məharəti, diplomatik bacarıqları, dərin analitik təfəkkürə, xarici dillərdə sərbəst nitq mədəniyyətinə malik olması faktorları istənilən məqamda, xüsusən Vətən müharibəsi kimi çətin və məsuliyyətli sınaqda xalqımıza böyük uğur qazandırmışdır. Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə və tarixi Zəfərdən sonra Azərbaycan xalqına etdiyi müraciətlərdə, dünyanın müxtəlif ölkələrinin otuza yaxın aparıcı xəbər agentliklərinə Azərbaycan, türk, rus və ingilis dillərində verdiyi müsahibələrdə ifadə olunan aydın məntiq, sərrast cavablar, xalqımıza, ordumuza sarsılmaz inam, istənilən vəziyyətdə manevr etmə qabiliyyəti müharibənin taleyində xüsusi rol oynamışdır. Ali Baş Komandan kimi İlham Əliyev həm siyasi-ideoloji cəbhədə və informasiya müharibəsində, həm də birbaşa hərbi əməliyyatlara rəhbərlik etmək sahəsində qeyri-adi dərəcədə istedad və bacarıq nümayiş etdirmişdir. Qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin Vətən müharibəsi zamanı təkbaşına apardığı siyasi-ideoloji mübarizə Vətən müharibəsində döyüşən orduda da Qələbəyə xidmət etmişdir. Ali Baş Komandan şiddətli döyüşlərin getdiyi ən çətin günlərdə nüfuzlu dünya informasiya agentliklərinə verdiyi dəmir məntiqə əsaslanan dərin məzmunlu müsahibələrlə beynəlxalq ictimai rəydə müharibəni udmuşdur. Dünya ölkələri Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin timsalında yüksək hazırlığa, qeyri-adi bacarıqlara və geniş dünyagörüşə malik olan fərqli bir liderlə qarşılaşmışdır. Hərtərəfli hazırlıq səviyyəsi, yüksək intellektual qabiliyyətləri, dönməz iradəsi və qətiyyəti etibarilə İlham Əliyev dünya liderlərinin mütləq əksəriyyətindən rəqabətdə qabağa getmişdir. Həqiqi bir qüdrətli liderə malik olmaq baxımından isə hamıdan çox Azərbaycan xalqı qazanmışdır. Prezident İlham Əliyev nəinki dünya liderlərinin ön sırasına çıxmış, mənsub olduğu xalqı və rəhbərlik etdiyi ölkəni də böyük xalqların və dövlətlərin cərgəsinə yüksəltməyi bacarmışdır. Prezident İlham Əliyev Vətən müharibəsində qazandığı böyük Zəfərlə çoxəsrlik Azərbaycan tarixinə müasir dövrün qalib Ali Baş Komandanı və Müzəffər Dövlət Rəhbəri kimi daxil olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Zəfər Azərbaycan xalqına təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının düşməndən azad edilməsinə, ərazi bütövlüyünün təmininə nail olmaq şansı qazandırmışdır. İlham Əliyevin əldə etdiyi Zəfərlə Ermənistan tərəfinin uydurduğu böyük Ermənistan mifi darmadağın edilmişdir. Erməni diasporu və lobbisi haqqında mövcud olan ictimai rəyin də süni şişirtmədən başqa heç nə olmadığı isbatlanmışdır. Vətən müharibəsində qazanılmış hərbi-siyasi Zəfərdən sonra vaxtilə İosif Stalin, Serqo Orconikidze və Anastas Mikoyan kimi radikal millətçi bolşeviklərin məkrli diktəsi ilə Azərbaycanın tərkibində uydurma şəkildə ermənilərin xeyrinə yaradılmış muxtariyyət statusu da artıq tarixin arxivinə getmişdir. Bundan başqa, İlham Əliyevin Vətən müharibəsindəki tarixi Zəfəri Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanı mat vəziyyətinə salmış, onun başçılıq etdiyi başabəla ölkəni sonu görünməyən müddətdə dərin iflasa uğratmışdır. Ermənistan Respublikasının mövcud hərbi-siyasi böhrandan xilası üçün bu ölkəyə on illiklərlə vaxt tələb olunur. Ermənistan hazırda dünyadan təcrid olunmuş, siyasi-iqtisadi və mənəvi böhranın məngənəsində çapalayan, məhv olmağa doğru gedən bir ölkəyə çevrilmişdir. Ermənistanın hazırkı hərbi-siyasi mənzərəsində onu bu dərin böhrandan xilas edəcək hər hansı bir “xilaskar” görünmür. Süni şəkildə ərazi iddiaları xülyasına uymuş, koronavirusdan da betər ifrat millətçilik xəstəliyinə yoluxmuş erməni başbilənlərindən birinin digərini əvəz etməsi ilə Ermənistanda vəziyyətin əsaslı şəkildə dəyişdiriləcəyinə inanmaq mümkün deyildir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qazandığı Zəfərlə müstəqil Azərbaycan dövləti:

- *Özünün itirilmiş qədim torpaqlarını işğalçılardan təmizləmişdir.*
- *Ərazi bütövlüyünü təmin etmişdir.*
- *Qəhrəman Ordumuz hərbi bacarıqlarını və imkanlarını dünyaya göstərmişdir.*
- *Ölkədə möhtəşəm birliyə nail olmuşdur.*
- *BMT-nin Dağlıq Qarabağla əlaqədar qətnamələrinin həyata keçirilməsini təmin etmişdir.*
- *Dünyanı yalançı erməni uydurmalarından və erməni faşizmindən xilas etmişdir.*
- *Ermənistan Respublikasına, daha çox isə erməni xalqına xəyalpərəst yuxudan ayılmaq, region ölkələri ilə qarşılıqlı etimad əsasında özünün yeni həyatını qurmaq üçün şans yaratmışdır.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın imzaladıqları 10 noyabr 2020-ci il tarixli razılaşma sənədi regionda qarşıdurmalara və müharibəyə son qoyan, nahaq qanların axıdılmasını dayandıran, Azərbaycan xalqına qarşı edilmiş böyük ədalətsizlikləri aradan qaldıran, bölgədə sülh və əməkdaşlığa yol açan əhəmiyyətli bir deklorasiyadır. Razılaşma sənədindəki müddəalara əsasən, müharibənin dayandırılması, qəhrəman Azərbaycan əsgərinin əzmi ilə azad edilmiş ərazilərdən başqa, işğal olunmuş Ağdam, Kəlbəcər və Laçın rayonlarının silah-sursat işlədilmədən, şəhid verilmədən geri qaytarılması mühüm diplomatik qələbə və böyük tarixi hadisədir. Eyni zamanda razılaşma sənədinin müddəalarına əsasən, Naxçıvan Muxtar Respublikasına gedən nəqliyyat dəhlizinin açılması ölkəmizin qardaş Türkiyə Cümhuriyyəti ilə, oradan da Avropa və əksinə, Asiya ölkələri ilə əlaqələrinin daha da genişləndirilməsinə, Pekindən Londona qədər uzanan tarixi İpək yolunun yenidən bərpa edilməsinə geniş imkanlar açılmışdır. Bu, Naxçıvan Muxtar Respublikasının illərdən bəri davam etməkdə olan çətin blokada şəraitindən xilas edilməsinə və Azərbaycanın ayrılmaz bir parçası olan bu diyarın ölkəmizin digər rayonları ilə əlaqələrinin yenidən formalaşmasına xidmət edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 noyabr 2020-ci ildə Şuşanın alınması günündə və əslində Vətən müharibəsində qələbəmizin təmin edildiyi vaxtda Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin məzarını və abidəsini dərin ehtiramla ziyarət etməsi qırx dörd günlük müharibə dövrünün ən təsirli və unudulmaz tarixi hadisələrindən biridir. Bu ibrətamiz hadisə ilə Prezident İlham Əliyev 30 il davam etmiş Dağlıq Qarabağ münaqişəsinin həllində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və vəsiyyət etdiyi tarixi bir missiyanın uğurla başa çatdırılmasının şərəfli bir hesabatını vermişdir. Dövlətçilik baxımından son dərəcə əhəmiyyətli olan bu mühüm hadisə siyasi varislik cəhətdən də mühüm əhəmiyyətə malikdir. Fəxri xiyabandakı ziyarət aktı müstəqil Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının hansı miqyasda və necə həyata keçirilməsinin bariz nümunəsidir. Müasir Azərbaycan tarixinin nadir səhifəsi olan bu ziyarət anı yeni nəsillərin ideya-siyasi və mənəvi tərbiyəsi üçün də xüsusi öyrənilməyə layiq ibrətamiz hadisə kimi də böyük əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş 8 noyabr Zəfər Günü çoxəsrlik Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış parlaq hadisədir. Bu, Ali Baş Komandan İlham Əliyevin, xalqımızın və rəşadətli Ordumuzun qazandığı böyük tarixi Zəfərdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qalib ölkə kimi birlikdə keçirdiyi Zəfər paradı qəhrəmanlıq salnaməmizin nadir tarixi hadisəsidir. Bu, “Bir millət - iki dövlət” strategiyasının real təntənəsidir. Böyük Zəfər Günü - gələcək daha böyük zəfərlərin bələdçisi və təminatçısıdır. Ali Baş Komandan İlham Əliyevin və qəhrəman Azərbaycan Ordusunun qazandığı Böyük Zəfər Günü ölkəmizə, regiona və dünyaya daha böyük zəfərlər vəd edir.

Zəfərlərin mübarək olsun, Azərbaycan!

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın birinci vitse-prezidenti,**
**Milli Məclisin deputatı, akademik**

# Ümummilli Liderin ideyaları layiqincə davam etdirilir

Müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin xalqımızın rifahı naminə gördüyü işlər və atdığı addımların bəhrəsi bu gün də həyatımızda öz yerini tutur. Ulu Öndər tarixdə olan nadir şəxsiyyətlərdən, liderlərdən biri idi ki, vahid, suveren dövlət konsepsiyasını hazırlamış və həyata keçirmişdir.

Heydər Əliyev 1993-cü ildə ölkəmizin siyasi rəhbərliyinə geri döndüyü dövrdən etibaran “qurmaq” və “yaratmaq” prinsiplərinə öz fəaliyyətində sadiq qaldı. Ölkəmiz üçün tarixin çətin sınaq mərhələlərindən olan bir dönəmdə məhz Ümummilli Liderin siyasi səriştəsinin nəticəsində xalqımız sınaqlardan üzüağ çıxmış, bugünkü suveren və inkişaf etmiş Azərbaycanın təməlləri qurulmuşdur. Azərbaycan gənc bir dövlət kimi, elm, təhsil, iqtisadiyyat, gənclər siyasəti, ordu quruculuğu, xarici siyasət, beynəlxalq əməkdaşlıq, neft və qeyri-neft sektoru kimi sahələrdə inkişaf etməyə başladı və bu çiçəklənmə dövründə hər bir azərbaycanlı fəxrlə məşhur cümləni təkrarlayırdı: “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!”

Xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi dövrdə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qətnamələrin qəbul olunması, Azərbaycanın ərazi bütövlüyünün tanınması məhz ölkəmizin çətin dövründə görülən ən böyük işlərdən biri kimi qiymətləndirilə bilər. Ulu Öndərin siyasi fəaliyyətinin nəticəsində ərazi bütövlüyümüzə və torpaqlarımıza qarşı olan iddialar zamanı haqq səsimiz dünyaya çatdırılmışdır.

Həmçinin eyni dövrə təsadüf edən “Əsrin müqaviləsi”nin imzalanması müstəqil Azərbaycanda iqtisadi inkişafın və dirçəlişin əsas təməli oldu. Siyasi səriştə və illərin təcrübəsi ilə əsl lider kimi ölkəni idarə edən Ulu Öndəri bu amalda bütün azərbaycanlılar dəstəklədi. Çünki hər kəs çox yaxşı bilirdi ki, ana vətənin rəhbərliyi artıq doğru əllərdədir və ölkəmizi parlaq bir gələcək gözləyir.

Heydər Əliyev öz siyasi kursuna, dəyərli fikrinə sadiq qalaraq, fəaliyyətdə olduğu müddət boyunca qurmuş və yaşatmışdır. Özünün də dediyi kimi: “İnsan qurmalıdır, yaratmalıdır!” Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaq. Ulu Öndər öz şəxsi keyfiyyətləri və siyasi rəhbərliyi ilə bütün xalqımızın qəlbində böyük yer qazanmış, heç vaxt sınmayan bir inam və etibar ilə xalqımızla bağlılıq qurmuşdur.

Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kurs, miras qoyduğu irs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan xalqı buna görə xoşbəxtdir və gələcəyə inamla baxır. Çünki bilir ki, Azərbaycanın dayanıqlı inkişafı və tərəqqisi doğru şəxsin əlindədir. Hər birimiz üçün önəmli məsələ olan Qarabağın işğaldan azad edilməsi də məhz layiqli davamçı, peşəkar siyasi lider İlham Əliyevin fəaliyyətinin nəticəsidir. Sözsüz burada bir məqamı qeyd etmək lazımdır ki, Ulu Öndərin 2003-cü il Prezident seçkilərindən öncə İlham Əliyev barədə səsləndirdiyi “Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” cümləsi bu gün özünü doğruldur.

Ulu Öndərin ideyaları azərbaycançılıq məfkurəsi bu gün bütün Azərbaycanda hiss edilir, görülür. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu da bu gün respublikamızda və xaricdə bir çox böyük layihələr həyata keçirərək Ulu Öndərin xatirəsini əbədiləşdirir.

Ulu Öndərin hakimiyyətə gəlişi ilə Azərbaycanın xilası, quruculuq işlərinin aparılması, İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yüksəlişi, Mehriban Əliyevanın təşəbbüsləri ilə mühüm layihələrin icra edilməsi bir daha Ulu Öndərin “İnsan qurmalıdır, yaratmalıdır” kəlamının dəyərini və aktual olduğunu göstərir. Bu kəlam son 27 il ərzində hər keçən gün ölkəmizdə inkişaf yolunda, xalqın rifahı üçün atılan hər addımda daha aydın görünür.

**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı**

# Heydər Əliyevin vəsiyyəti yerinə yetirildi

Əvvəli 1-ci səh.

Ulu Öndərin ruhu bu gün şaddır, çünki Azərbaycan bu gün onun ən layiqli siyasi davamçı İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən güclü dövrünü yaşayır. İlham Əliyev Azərbaycanı gücləndirərək elə bir səviyyəyə çatdırdı ki, ordumuz Ermənistanın işğal siyasətinə son qoydu, torpaqlarımızı azad etdi. Bununla həm də Ulu Öndərin arzuları çin oldu, vəsiyyəti yerinə yetirildi. “Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!” - deyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciəti zamanı bildirmişdi.

### Tarixi yaradan şəxsiyyət

Bu gün - dekabrın 12-də xalqımız Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edir. Xalqımız həm də Ulu Öndərə sonsuz minnətdarlığını ifadə edir. Çünki bu Qələbənin təməli illər əvvəl Heydər Əliyev tərəfindən dövlətçiliyimizin və müstəqilliyimizin əsasları möhkəmləndiriləndə, tənəzzülün qarşısı alınanda, xarici neft şirkətləri ilə tarixi müqavilələr imzalananda, ordu quruculuğuna başlananda qoyulmuşdu.

Ümumiyyətlə, böyük şəxsiyyətlər, öz əməlləri ilə tarix yaradır, onu zənginləşdirir və dəyişdirirlər. Heydər Əliyevin 1993-cü ildə başlatdığı xilaskarlıq missiyası da bu deyilənləri təsdiq edir. Hələ sovet hakimiyyəti dövründə Azərbaycanı tənəzzüldən inkişaf yoluna çıxaran Heydər Əliyev müstəqilliyimizin bərkimədiyi 1993-cü ildə də tarixin gərdişini dəyişdi. Öz müdrikliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və dəyanəti ilə müstəqilliyimizi qorudu. Ulu Öndərin bilavasitə rəhbərliyi altında, onun dühası, qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin etibarlı əsasları yaradıldı.

Beləliklə, Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti budur ki, o, ən kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Bu gün xalqımızın bəhrəsini gördüyü uğurlu neft strategiyasının müəllifi Heydər Əliyev oldu. Eyni zamanda Heydər Əliyev hər bir sahə üzrə islahatın təməlini qoydu. Böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. Hüquqi dövlət quruculuğu həyata keçirildi. Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı. Beləliklə, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı bu gün uğurları ilə qürur duyduğumuz Azərbaycan dövlətinin yaranması ilə nəticələndi.

### Vətən müharibəsində Qələbə Ulu Öndərin ideyalarının təntənəsidir

Azərbaycanın müasir ordusunun yaradılması Heydər Əliyevin dövlət quruculuğunun ən parlaq səhifələrindən biridir. Heydər Əliyev görkəmli dövlət xadimi, böyük siyasətçi, həm də peşəkar hərbçi idi. Elə buna görə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra əsası qoyulan ordu quruculuğunun diqqətçəkən əsas cəhəti yüksək peşəkarlıqla həyata keçirilməsi idi. Vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu.

Başlanğıcını 1993-cü il noyabrın 2-dən - Ulu Öndərin xalqa müraciətindən götürən və tarixə Heydər Əliyevin ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldılar, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdilər.

Ulu Öndər Heydər Əliyev öyüd-nəsihətlə demişdir: “...Artıq Azərbaycanın müasir tələblərə cavab verə biləcək nizami ordusu vardır. Orduda lazımi nizam-intizam, qanun-qayda var və Azərbaycanın bugünkü ordusu, Silahlı Qüvvələri Azərbaycan torpaqlarını etibarlı müdafiə etməyə qadirdir. Biz buna çətin yollardan keçərək nail olmuşuq. Ancaq əldə etdiyimiz nailiyyət bizi arxayınlaşdırmamalıdır. Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir”.

Ötən 17 ildə Heydər Əliyev siyasətini inamla davam etdirən Prezident İlham Əliyev ordu quruculuğu məsələlərini xüsusilə diqqət mərkəzində saxlayıb. Bu illərdə Azərbaycan Ordusu ən müasir standartlar səviyyəsində gücləndirilib, döyüş imkanlarını hərb sənayesinin yeniliklərinə uyğun artırıb. Yenilikçi rəhbər olan İlham Əliyev Ali Baş Komandan kimi ordumuzun da müasir çağırışlarla ayaqlaşmasını təmin edib. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsini şərtləndirən amillər əsgərlərimizin vətənpərvərliyi və yüksək döyüş ruhu ilə yanaşı, həm də ordumuzun müasir hərbi imkanlara malik olmasıdır.

Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxardı. Bu ordu qarşısında duran tarixi missiyanı, yaradıcısı olan Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Odur ki, bu gün Heydər Əliyevin ruhu rahatdır və bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir.

**Rəşad CƏFƏRLİ,**
**“Azərbaycan”**

## İki canda bir ürək

# “Zəfər və qürur günü”

## Vətən müharibəsində Qələbəyə həsr olunmuş parad Türkiyə mediasının əsas gündəm mövzusu oldu

**Türkiyə-Azərbaycan dostluğunun sarsılmazlığı Vətən müharibəsi timsalında bir daha təsdiqini tapdı. Türkiyə dar günün dostu olduğunu, ən yaxın müttəfiqinin dərdini hər zaman bölüşdüyünü, eyni zamanda qardaş Azərbaycanı heç zaman yalnız qoymayacağını növbəti dəfə nümayiş etdirdi.**


AKŞAM
TÜRK'ÜN ZAFER GÜNÜ


MİLAT
HİLALİN ZAFERİ


Milliyet
Dağlık Karabağ zaferi böyle kutlandı
GURUR GÜNÜ


Türkiye
TÜRK BİRLİĞİNİN ZAFERİ


POSTA
BAKÜ'DEN TÜM DÜNYAYA MESAJ
Yaşasın QARDAŞLIQ


Hürriyet
İKİ DEVLET TEK ZAFER


Bakü'de ZAFER Geçidi
YENİÇAĞ


YENİSÖZ
Azerbaycan destan yazmaya devam edecek


Yeni Şafak
ZAFER VE GURUR GÜNÜ
DESTAN YAZMAYA DEVAM


SABAH
İŞTE TÜRK'ÜN GÜCÜ


Takvim
ZAFER VE GURUR GÜNÜ


TÜRKGÜN
TÜRK'ÜN KARABAĞ GURURU


Aydınlık
ZAFER GÜVEN SEVİNÇ


akit
BAKÜ'DE ZAFER COŞKUSU


T.C. Sözcü
Azerbaycan'da zafer günü


YeniBirlik
ERMENİSTAN SÜRPRİZİ


Anayurt
Bakü'de zafer kutlaması


DİRİLİŞ POSTASI
Azerbaycan'da tarihi gün


YENİ MESAJ
KARDEŞLERİN ZAFERİ


KARAR.
AZADLIK MERASİMİ


DOKUZ SÜTUN
Destan yazmayı sürdürecek
BAKÜ'DE ZAFER GEÇİDİ


Cumhuriyet
Bakû'da tarihi gün
ATATÜRK'ÜN ATTIĞI ADIM SONUÇ VERİYOR

Dekabrın 10-da paytaxtın Azadlıq meydanında Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təşkil olunan möhtəşəm parada türk mediası da xüsusi diqqət ayırdı. İki ölkənin liderlərinin Zəfər paradındakı çıxışları Türkiyədə tirajlanan bütün qəzetlərin manşet mövzusu oldu. Onlardan bəzilərini diqqətə çatdırırıq.

“Yeni Şafak” qəzeti “Zəfər və qürur günü” başlıqlı xəbərini manşetə çıxarıb. Bildirilir ki, Azərbaycanla Türkiyə arasında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduqlarını həmişə göstəriblər. İki ölkənin prezidentlərinin Zəfər paradındakı çıxışlarından sitatların yer aldığı məqalədə İlham Əliyevin “Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”, R.T.Ərdoğanın isə “Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə inşallah, dastan yazmaqda davam edəcək” fikirləri xüsusi olaraq diqqətə çatdırılıb.

“Milliyet” qəzeti “Qürur günü” başlıqlı xəbərində parad haqqında oxuculara ətraflı məlumat verib. Qəzet yazır ki, dekabrın 10-da Azərbaycan paytaxtının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. Məqalədə qeyd olunur ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı, strateji tərəfdaşlığı bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

“Türkün gücü” başlıqlı məqalə isə “Sabah” qəzetinin manşetində yer alıb. Dövlət başçılarının çıxışlarına geniş yer ayrılan məqalədə qeyd olunub ki, Zəfər paradı qardaşlığın, sədaqətin rəmzinə çevrildi. Prezident İlham Əliyevin “Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi” fikirlərini oxuculara çatdıran nəşr Azərbaycanın 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etməsini tarixi hadisə kimi qiymətləndirib.

“Hürriyet” qəzeti “İki dövlət tək zəfər” başlıqlı xəbərində hər iki ölkənin dövlət başçılarının Zəfər paradı barədə çıxışlarını ön plana çıxarıb. Qeyd olunub ki, 44 günlük müharibədə əldə olunan möhtəşəm Qələbə və Zəfər paradı uzun illər ərzində görülmüş işlərin, keçilmiş yolun nəticəsidir. Yüzlərlə hərbi texnikanın, uçuş vasitələrinin, zirehli texnikaların, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu parad bütün dünyanın diqqət mərkəzində oldu.

“Akşam” qəzeti “Türkün Zəfər günü” başlıqlı xəbərində İlham Əliyevin fikirlərinə geniş yer verərək vurğulayır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir. Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi əlaqələr və digər sahələrdəki əməkdaşlıq hazırda elə bir yüksək mərhələdədir ki, bunları həmin ölkələrin cəmiyyətlərinə anlatmağa, eləcə də dünyaya izah etməyə heç bir ehtiyac yoxdur. Bunun növbəti dəfə möhtəşəm Zəfər paradında şahidi olduq.

R.T.Ərdoğanın “İnanıram ki, Allahın izni ilə Qarabağ da gecikmədən, 3-5 il ərzində tamamilə fərqli vəziyyətə gətiriləcəkdir. Bu qüdrət, bu güc İlham qardaşımda var. Çünki bunu sübut edib” fikirlərinə yer ayıran nəşrdə 44 günlük müharibənin yekununda Qarabağın azad edilməsinin tarixi hadisə olduğu diqqətə çatdırılıb.

“Türkiyə” qəzeti isə Azərbaycanın müharibədəki qələbəsindən “Türk birliyinin Zəfəri” başlıqlı məqaləsində bəhs edir. Yazılır ki, bu gün Azərbaycan çox şərəfli tarixi anları yaşayır. Uzun illərdən sonra Qarabağ işğaldan azad olunub. Prezident İlham Əliyevin “Türkiyənin müdafiə sənayesinin məhsulu olan məşhur “Bayraktar” Vətən müharibəsində böyük dəyişikliyə səbəb oldu. Bizim uğurlarımızın əldə edilməsində müstəsna rol oynadı” fikirlərinin yer aldığı məqalədə Zəfər paradının möhtəşəmliyindən bəhs olunur. Yazılır ki, paradda Azərbaycan hərbçilərinin və Türk əsgərlərinin təntənəli keçidi olub. Həmçinin 150-dək hərbi texnika, o cümlədən raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri nümayiş etdirilib.

“Yeni akit” qəzetinin “Bakıda Zəfər coşqusu” adlı məqaləsində ölkəmizdə yaşanan qələbə coşqusu, Ordumuzun müzəffər birliklərinin paraddan keçidi, Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nitqlərindən mühüm məqamlar əksini tapıb.

“Aydınlık” qəzeti “Zəfər, güvən, sevinc” başlıqlı xəbəri ilə Azərbaycanın müharibədəki uğurlarını oxuculara çatdırıb. Məqalədə Zəfər paradı ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev və həmkarı Rəcəb Tayyib Ərdoğanın çıxışlarına yer ayrılıb. Qeyd edilib ki, Zəfər paradında türk və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Təkcə Bakı yox, bütün Azərbaycan şəhərləri Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilib.

Qəzetlərdən “Türkgün”ün “Türkün Qarabağ qüruru”, “Sözcü”nün “Azərbaycanda zəfər günü”, “Karar”ın “Azadlıq mərasimi”, “Takvim”in “Zəfər və qürur günü”, “Diriliş postası”nın “Azərbaycanda tarixi gün”, “Cümhuriyyet”in “Bakıda tarixi gün”, “Posta”nın “Yaşasın qardaşlıq”, “Milat”ın “Hilalın zəfəri”, “Yeni söz”ün “Azərbaycan dastan yazmağa davam edəcək”, “Dokuz sütun”un “Dastan yazmağı davam edəcək”, “Anayurt”un “Bakıda Zəfər qutlaması”, “Yeni mesaj”ın “Qardaşların zəfəri”, “Yeni çağ”ın “Bakıda zəfər keçidi” və “Yeni birlik”in “Ermənistan sürprizi” başlıqlı xəbərlərində Zəfər paradının möhtəşəmliyindən oxuculara bəhs olunub.

Məqalələrdə Azərbaycanın əldə etdiyi uğurlar, ordumuzun şücaəti barədə ətraflı yazılır, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın 44 günlük müharibə barədə fikirləri diqqətə çatdırılır. Bildirilir ki, bu parad növbəti dəfə sübut etdi ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# Zəfər zirvəli parad

## Azərbaycan tarixinin şanlı məqamı “Baku Media Senter”in təqdimatında




























# İlham Əliyev: “Laçın bizimdir!”

## Laçından Qarabağ daha işıqlı görünür



**Dağların “quşqonmaz” zirvəsində əsrlərin “dizini qatlayan”, minilliklərdən soraq verən qalalar məskəni Laçının vəsfi şeirin, musiqinin ritminə köklənib.**

Amma son illər bəstələnən bir mahnı da vardı: Laçının təkcə təbiətini deyil, taleyini də ifadə edir. Laçından uzaq düşüb xiffət çəkərək, sevilən mahnıları ilə xatirələrdə yaşayan Məhəbbət Kazımovun haraylı səsində “Laçınım... Laçınım... Laçınım mənim” mahnısı təkcə o yurdda doğulanları deyil, ümumiyyətlə, bu dağların həsrətində olanları yandırıb-yaxaraq qartalları illərlə qıy vurmayan qayalı-daşlı, dağıdılan, talan edilən yurdlara səsləyib.

Laçın düşmən məkrinin, çirkin siyasətin qurbanı olub. 1992-ci il may ayının 18-də işğala məruz qalıb. Ona görə də o ildən 1 dekabr 2020-ci il tarixinədək dağlarımızın zirvəsi sayılan Laçında doğulmuşların qəlbindən qara qanların necə axdığını təsəvvür etmək çətin deyildi.

Laçının işğalı da gözlənilməz, qəfil olmuş, əslində, siyasi oyunların qurbanına çevrilmişdi. Laçın və laçınlılar təklənmişdi. Düşmənə atəş açmaq əvəzinə, Bakıya, üzügeri dönən ağır texnikalara, tank və BTR-lərə sanki qayalar yol vermir, onları bənd-bərəyə salırdılar. Elə ona görə də Laçın kimi qartallar yuvasını itirənlərin ürəyində o qayalar, dağlar boyda yara vardı.

### 28 illik ayrılığın sonu

Laçın işğal olunanda Qarabağı Ermənistanla birləşdirən dəhliz də ermənilərin əlinə keçdi. Bu, onlara hava-su kimi lazım idi. Bu işğalda 262 nəfər laçınlı şəhid oldu, 67 nəfər itkin düşdü. 48 sənaye və 63 kənd təsərrüfatı müəssisəsi, 217 mədəniyyət, 103 təhsil, 142 səhiyyə ocağı dağıdılıb yerləyeksan olundu. 60 mindən artıq laçınlı odsuz- ocaqsız qaldı.

İyirmi səkkiz il idi ki, beləcə ulu dağlarına boylanıb həsrət çəkə-çəkə dünyasını dəyişən laçınlılar, təəssüf ki, böyük qələbənin şahidi olmadılar. Milli Ordumuzun zəfər yürüşləri ilə düşmən tapdağından azad edilən yerlərə dinclik, əmin-amanlıq gəldiyini görməsələr də, oğul-qızları, nəvə-nəticələri yağıya layiq olduğu cavabı verdiyi üçün, heç şübhəsiz, onların ruhlarını şad edirlər.

Yazın gəlişi ilə dağlar yaşıl donuna bürünüb aran ellərini yaylağa haraylayardı... Şuşanın arxadayağı, söykənəcəyi olan Laçının bir tərəfi də Kəlbəcər idi... Vaxtilə Soltan bəyin qarşısında baş əyən erməni qaçaq-quldurlarının törəmələri 28 il idi ki, o yerlərdə “at oynadır”dı!

Xalqımızın ümumi sərvəti olan dağlarımızın yağmalanması ilə dəyəri milyardlarla ölçülən təbii sərvətlərimiz daşnakların əlinə keçdi, talandı. Təkcə maddi sərvətlər beşiyi deyildi Laçın. Burada min illərin yadigarı olan maddi-mənəvi sərvətlərimiz də bəs deyincən idi. Təəssüflər olsun ki, humanizmin təbliği ilə məşğul olan beynəlxalq təşkilatlar o talanların qarşısını almaq istəmədilər.

Laçından ayrıldığımız ötən illərdə burada ermənilərin məskunlaşdırılması dəfələrlə müzakirə mövzusu olsa da, buna beynəlxalq birlik göz yumdu.

Laçının strateji əhəmiyyətini yaxşı bilən daşnaklar vaxtilə ora dəfələrlə hücum etsələr də, “burunları ovulub”, geri qaçmağı qənimət bilmişdilər. Sultan bəyin ər igidlərinin hər biri bir qaya idi! Bunu daşnaklar 1905-1915-ci illərdə dədə-babaları bu dağlarda qarğa-quzğuna yem olandan bilirdilər. Hər qayası bir igid ərən olan Laçın dağlarına ayaq basmaq istəyən daşnakların son aqibəti məlum idi: “tayqulaq Andronik” Ozanyan kimi, diz çöküb, yalvarmışdılar. Təəssüf ki, 1992-ci ildə Laçının işğalı Dağlıq Qarabağdakı separatçı rejimə can verdi. “Laçın koridoru” ifadəsi də məhz bu qalalar səltənəti düşmən əsarətinə keçdikdən sonra leksikonumuza daxil oldu.

Bu dalan daşnaklara Ermənistandan Qarabağa daşınmaq və orada möhkəmlənmək üçün strateji əhəmiyyət kəsb edirdi. Buna görə ikiüzlü siyasəti ilə bu gün də Ermənistanın arxasında dayandığını təsdiqləyən himayədarları, xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Fransa “Laçın koridoru”nun əhəmiyyətini birə-min artırırdılar. Guya ki, bu dəhliz olmasa, Dağlıq Qarabağdakı daşnaklar mühasirəyə düşəcəkdi. Beləliklə, işğaldan azad ediləcək beş rayondan söhbət gedəndə Laçınla Kəlbəcərin adı çəkilmirdi.

### Yurdda qalanlar - talan olanlar

Laçının ərazisindəki maddi mədəniyyət nümunələrimizin hansı səviyyədə olması işğal altında qalan torpaqlarımıza vaxtaşırı səfər edən beynəlxalq faktaraşdırıcı missiyanın üzvlərinə də məlumdur: daşı daş üstə qalmayıb. Tarixin yaddaşı olan abidələr bu yerlərdə saxtalaşdırılıb - erməniləşdirilib. Azərbaycanın mədəni irsini hədəf seçən ermənilər işğal altında qalan maddi mədəniyyət abidələrimizi tamamilə və qəddarlıqla məhv etmişlər. Rayonun yüzlərlə mədəni-məişət obyekti, onlarca qəsəbə, kənd və tarixi abidələri dağıdıldı. İşğal nəticəsində 63 min 341 nəfər Azərbaycan vətəndaşı öz yurdundan didərgin salındı. 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və ya itkin düşdü.

Şuşanın Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən geostrateji mövqeyə malik olan Laçını işğal etməsi ilə Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu. Təbii sərvətlərlə zəngin Laçında Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar var idi. Ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), 4457 min ton əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Hoçaz mərmərləşmiş əhəngdaşı, mişardaşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli ərazilərində), 2 əlvan bəzək daşı, vulkan külü yataqları və s. var idi.




Laçındakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da işğal altında qalmaqla məhvə məhkum edildi. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü vardı. 1961-ci ilin noyabr ayında yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, dağkeçisi, çöldonuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir növlər olub. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağkeçisi 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda digər vəhşi heyvanlar və quş növləri qeydə alınmışdı.

### Əsrlərin, minilliklərin şahidləri

Laçın dağlarında qədim mədəniyyət abidələri ilə təbiət bir-birini sanki tamamlayırdı. Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Bülövlük, Araflı, Əliqululu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan və digər kəndlərdəki tarixi abidələr (12 qoç, 28 at fiquru, 36 müxtəlif süjetli yazılar və rəsmlər, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilmiş qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı) bu torpaqlarda min illər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələr idi.

Rayonun Cicimli kəndindəki məbəd, qədim anbar, rayon tarix-diyarşünaslıq muzeyi əsrlərin canlı salnaməsi idi. Muzeydə toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. Təəssüf ki, Laçının işğalı nəticəsində bu tarixi incilər də təcavüzün qurbanına çevrildi.

### “Ay Allahı” da burada...

Laçında təcavüzə məruz qalanlardan biri də saxta erməni kilsəsi kimi təqdim olunan Ağoğlan abidəsidir. Böyük Vətən müharibəsi iştirakçılarının xatirə kompleksinin erməniləşdirilməsi, şəhərin qərb istiqamətdən çıxışında tikilmiş abidə - “Qala qapısı” (üzərində erməni xaçı) və s. dediklərimizə sübutdur.

Laçın ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Memarlıq elmləri doktoru D.A.Axundov və fəlsəfə doktoru M.D.Axundov “Qafqaz Albaniyasının stellalarında dini simvolika” və “Dünyanın mənzərəsi” adlı məqalələrində göstərirlər ki, düzbucaqlı çərçivə içərisində cızma texnikası ilə işlənilən qadın, güman ki, Ay allahı kimi təsvir olunmuşdur. Göstərilən bu abidə-stella bizim eranın xristianlıqdan əvvəlki dövrünə, bəlkə də daha qədimlərə aiddir. Tamamilə onun eyni olan bir stella da Kosalar kəndində, Ağoğlan qəsrinin həyətində idi.

Alı Xəlifə ocağı Laçının Böyük Seyidlər kəndində idi. Qarabağın ən ağır seyidlərindən sayılan Alı Xəlifə həmin kənddə dünyasını dəyişmiş, məzarı üstündə sərdaba tikilmişdi. Ən ulu səcdəgahlardan biri də məhz Alı Xəlifənin ocağı sayılırdı.

Həmin kənddə daha iki müqəddəs ocaq var idi: Seyid Hüseyn ziyarətgahı ilə “Güllü qəbir” piri. Həmin pirdə dəfn edilmiş Hacı İbrahim ağa, deyilənlərə görə, Qarabağ ellərinin ağır övliyalarından sayılan Xudavəndə Xəlifənin nəvəsi imiş...

### Uca dağlar al şəfəqə bürünür

Ağoğlan qəsri Laçının Minkənd çayının kənarında, hündür bir yerdədir. Cicimlidə məbəd, anbar, Güləbirddəki Sarı Aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, Soltanbaba, Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə və Piçənisdəki alban məbədləri, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları - Qara Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin hasardakı, həmçinin Şeyx Şamillə dostluq etmiş Cəbrayıl bəyin, Araflıda Murtuza Sultanın anasının türbələri, Pircahan çayı üzərindəki Məşədi Mehralının arxitekturalı və Minkənd körpüləri kimi tarixin nadir inciləri erməni vandalları tərəfindən darmadağın edildi.

Təbii ki, Laçın rayonu ərazisində bir vaxtlar mövcud olmuş tarixi abidə və məbədlər yalnız adları çəkilənlər deyil. Heyif ki, qalalar, məbədlər diyarında təbii sərvətlər ermənilər tərəfindən vəhşicəsinə talan olundu.

...Lakin Laçın dağları da rəşadətli tarix yazan Milli Ordumuzun müzəffər yürüşləri ilə işğaldan azad edildi. 30 ilə yaxın idi ki, bu dağlara deyirlər, heç yazda da bahar gəlmir, təbiət öz donunu dəyişmirdi...

Budur, payız fəsli olsa da, Ordumuz dağlara da bahar müjdəli Qələbə gətirdi. Məşhur mahnıda deyildiyi kimi, “...uca dağlar al şəfəqə bürünür, hara baxsan, şadlıq, sevinc görünür”... Çünki biz Laçındayıq!

***Rəhman SALMANLI, Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***





# Qırğızıstanda Heydər Əliyevin xatirəsinə həsr olunan kitab nəşr olunub

**Qırğızıstanda Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunan "Türk dünyasının dahi şəxsiyyəti" adlı məqalələr toplusu Azərbaycan və rus dillərində çapdan çıxıb.**

AMEA-nın Tarix İnstitutundan verilən məlumata görə, bu kitab Qırğızıstanda fəaliyyət göstərən Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu tərəfindən nəşr olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın İssık-Kul haqqında şeiri 9 dilə tərcümə edilərək yeni nəşrə daxil edilib.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov kitaba "Heydər Əliyev - zaman və məkan anlayışlarından ucada duran azərbaycanlı dahi" adlı ön söz yazıb. Topludakı ilk məqalə Yaqub Mahmudovun "Ata yurdumuzun Atatürkü" adlı geniş yazısıdır.

Tarixçi alim araşdırmasında qeyd edir ki, Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəl hakimiyyətdə olanların qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi "Azərbaycan" möhürü özümüzə qaytarıldı. Bununla reallaşmaqda




olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Ulu Öndərin ən mühüm uğurlarından biri budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Hazırda Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür.

Nəşrdə Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini Cəbi Bəhramovun "Heydər Əliyevin neft strategiyası müasir Azərbaycan dövlətinin inkişafının təməl daşıdır", Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsinin müdiri Güntəkin Nəcəflinin "Heydər Əliyev - Azərbaycan xalqının milli təəssübkeşi (akademik Yaqub Mahmudovun xatirələri əsasında)", "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyevanın "15 iyun tariximizin qurtuluşunun zirvəsidir", Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Qafar Əliyevin "Müasir Azərbaycan dövlətinin banisi, xilaskarı və qurucusu - Heydər Əliyev" və başqa tədqiqatçıların məqalələri yer alıb. Topluya Türkiyə, Qırğızıstan və başqa ölkələrin tədqiqatçılarının məqalələri də daxil edilib.

Xatırladaq ki, Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun prezidenti Nüsrət Məmmədov Mərkəzi Asiya respublikalarında Azərbaycan həqiqətlərinin yayılmasında mühüm rol oynayır və o, Tarix İnstitutu alimlərinin erməni saxtakarlarını ifşa edən fundamental araşdırmalarının Qırğızıstanda nəşrinə yardım edir.

***"Azərbaycan"***

# Milli Kitabxanada Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş guşənin açılışı olub

Dekabrın 11-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş guşənin açılış mərasimi olub.



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq qonaqları salamlayıb və açılış mərasiminin Heydər Əliyevin anım gününə düşdüyünü nəzərə alaraq Ulu Öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi təklif edib.

K.Tahirov qeyd edib ki, 1995-1997-ci illərdə Ulu Öndər Milli Kitabxananı 4 dəfə ziyarət edib və ilk gəlişində bu kitabxanaya öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitab bağışlayıb.

Tədbirdə Ulu Öndərin Milli Kitabxanaya hədiyyə etdiyi kitablar, onun öz kitabları və haqqında yazılan kitablar, Milli Kitabxanada olarkən çəkilən şəkillər, Məkkədən gətirdiyi və Milli Kitabxanaya hədiyyə etdiyi "Qurani-Kərim", habelə kitabxanada olarkən etdiyi çıxışların lent yazılarının nümayiş olunduğu diqqətə çatdırılıb.

Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini icra edən Anar Kərimov çıxış edərək deyib: "Bu gün Ulu Öndərin ruhu ikiqat şaddır, əvvəla ona görə ki, onun canından çox sevdiyi doğma Azərbaycanı öz tarixi Zəfər bayramının, qələbə bayramının sevincini yaşayır, bayram edir və həm də ona görə ki, bu bayram sevincini və zəfər eyforiyasını xalqımıza, dövlətimizə Ulu Öndərin həyat və siyasət məktəbinin yetişdirməsi olan, onun "özü qədər inandığı" davamçısı Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev qazandırıb. Məncə, heç də təsadüfi deyildir ki, Prezidentimiz qələbə sevincini ilk olaraq Ulu Öndərimiz Heydər Əliyevlə bölüşmək üçün Fəxri xiyabana gedərək onun abidəsinin önündə baş əyərək atasının ən böyük vəsiyyətini yerinə yetirdiyini bildirib".

A. Kərimov qeyd edib ki, buradakı kitablara nəzər yetirərkən Ulu Öndərin necə bir fəal mütaliəçi olduğunu əyani şəkildə görə bilirik: "Mən inanıram ki, hələ neçə-neçə nəsillər bu kitablarla və Ulu Öndərin orada etdiyi qeydlərlə tanış olarkən onun kimi fəal mütaliəçi olmağa çalışacaq və bundan müsbət bir örnək götürəcəklər".

YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev bildirib ki, Heydər Əliyev Azərbaycan xalqının son 200 ildə yetişdirdiyi ən dahi şəxsiyyətlərdən biridir. Onun ölkəmizə rəhbərliyi ərzində Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirib. Vurğulanıb ki, Ulu Öndərin hakimiyyəti illərində yaranan ordumuz hazırda Prezident İlham Əliyevin diqqət və qayğısı ilə daha da inkişaf edib və Ali Baş Komandanımızın rəhbərliyi altında böyük zəfər tarixi yazaraq, 30 ildən bəri düşmən əsarətində olan torpaqlarımızı erməni işğalından azad edib.

Tədbirdə həmçinin digər iştirakçıların da Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyində xidmətləri haqqında çıxışları dinlənilib.

Sonda tədbir iştirakçıları guşədə nümayiş etdirilən materiallarla tanış olublar.

# Biz birlikdə güclüyük!

## Koronavirusdan xilas yolu məsuliyyətli olmaqdan keçir

**Hər hansı xəstəliyin müalicəsi, əlbəttə, ilk növbədə həkimin müayinə və diaqnozundan çox asılıdır. Ötən ilin bu vaxtlarından dünyanı vahimə içərisində saxlayan koronavirusun da müalicəsi, təbii ki, onun profilaktikasından başlayır.**

Dünya səhiyyəsinin son nailiyyətlərini nəzərə alsaq, bu virusa yoluxmanın qarşısının alınması ilə bağlı həyəcanı müqayisə etmək o qədər də asan deyil.

Koronavirusa yoluxaraq dünyasını dəyişənlərin müxtəlif yaş qruplarına aid olması ilə bağlı Çinin Xəstəliklərə Nəzarət və Müdafiə Mərkəzinin yaydığı statistikaya nəzər salsaq görərik ki, bu bəladan həyatını itirənlərin 2,8 faizi kişilər, 1,7 faizi isə qadınlardır. Əvvəllər 10 yaşadək uşaqlarda ölüm faizi olmasa da, bu gün həmin fikri söyləmək çətindir. Çünki uşaqların da arasında vurusa yoluxma hallarına davamlı şəkildə rast gəlinir və həm də təəssüf ki, simptomsuz.

Dünyada koronavirusa yoluxanların sayı durmadan artmaqdadır. Bu fakt Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumatda təsdiqlənir. Bütün qitələrə yayılmış virusdan xilas yolları araşdırılmaqdadır. Konkret nəticənin əldə edilməməsi də vəziyyətin ciddi nəzarətə alınmasını tələb edir.

### Ciddi məsələyə laqeyd münasibətin nəticəsi

Hələlik son rəqəmlər də ürəkaçan deyil. Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına az qala 5 min nəfərə yaxın yeni yoluxma faktı qeydə alınıb, sağalanların isə bundan xeyli az olduğu bildirilir. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən son məlumata əsasən, indiyədək ölkədə ümumilikdə 163 min nəfərə yaxın insan koronavirus infeksiyasına yoluxub. Onlardan 100 minə yaxını müalicə olunaraq sağalıb, 1700-dən artıq ölkə vətəndaşı vəfat edib. Aktiv xəstələrin sayı isə 61 min nəfərdən çoxdur.

Yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar son günlər aparılan testlərin sayı əvvəlkilərindən xeyli artıq olub. Belə ki, indiyədək aparılan testlərin ümumilikdə sayı 2 milyona yaxındır. Məhz testlərin sayının artması ilə yoluxmaların da kəskin çoxalması müşahidə edilməkdədir. Demək, testlərin sayı artdıqca yoluxmaların da paralel olaraq yüksəlmə şkalasına əsaslansaq, vəziyyət daha ciddi düşünməyi tələb edir.

Dəfələrlə mətbuatda müxtəlif variantlardan istisadə etməklə aparılan təbliğatlara baxmayaraq, son vaxtlar ölkə vətəndaşlarının bu ciddi məsələyə laqeyd münasibəti vəziyyətin kəskin həddə çatmasına səbəb olub. Buna görə də yenidən sərt karantin rejiminin tətbiqi mütəxəssislər tərəfindən birmənalı şəkildə tələb olunub. Bu, əlbəttə, vətəndaşların sağlamlığının qorunmasında mühüm amillərdən biridir. Doğrudur, gün ərzində yenidən SMS-lə hərəkət müəyyən məhdudiyyətlərə gətirib çıxara bilər. Bununla bağlı hüquq mühafizə orqanları ilə Operativ Qərargahın birgə məlumatlarında məsələlərə aydınlıq gətirilib.

### Koronavirusun qənimi təmizlikdir!

Hamı indi ondan danışır, bəs mütəxəssislər nə düşünür? "Korona" virusu! Bu gün dünyada az qala hər kəsi düşündürən bəlanın nədən yaranması, yaxud yaradılması və qarşısının alınmasının mümkünlüyü barədə bir-birini bəzən təsdiq, yaxud təkzib edən məlumatlar da virusun özü kimi sürətlə yayılmaqda, insanları haqlı olaraq ciddi təlaşa salmaqdadır. Bu məsələdən başı çıxan da danışır, çıxmayan da. Əlbəttə, bu, ilk baxışda əhalinin ayıq-sayıq olması baxımından təbiidir.

Məsələ ilə bağlı respublika Səhiyyə Nazirliyinin və əlaqədar qurumların vəziyyətin nəzarət altında saxlanılması haqqında məlumatları insanlarda virus xofunu bir qədər azaltsa da, lazımi tədbirlər davamlı şəkildə görülməlidir. Daha bir maraqlı məqam isə virusu məhv edəcək vaksinin tapılması, yaxud hazırlanması ilə bağlı insanların narahatlığıdır. O da maraqlıdır ki, hələ əldə edilməyən vaksin haqqında da birmənalı fikir söyləyən yoxdur. Yəni mütəxəssislər qalıb bir tərəfdə, dərman istehsal edən şirkətlər indidən vaksinasiya haqqında müxtəlif versiyalar irəli sürməkdə, dezinformasiyalarla insanları çaş-baş qoymaqdadırlar.

Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb elmləri doktoru, professor Lalə Allahverdiyevanın fikrincə, bir çox dövlətlər ləngimədən uyğun vaksinin yaradılmasına başladı. Koronavirus vaksininin hazırlanması Qərbi Avropa, Rusiya, ABŞ, Çin, Yaponiya və bir çox digər ölkələrdə aparılır. Dünyada təxminən 35 laboratoriya koronavirus əleyhinə vaksin hazırlamağa çalışır: "...Hazırlanmış vaksin ümumbəşəri mülkə çevrilməlidir və geosiyasi təsirlər olmadan, şəxsi mənafe güdülmədən, insanların faciəsindən gəlir əldə etmək cəhdləri güdmədən, hər kəs üçün əlçatan olmalıdır. Müasir şəraitdə hər hansı bir ölkədə infeksiyanı tək məğlub etməyə çalışmaq və "hər kəs özü üçün" prinsipi ilə hərəkət etmək səhv olardı. Yalnız ümumi səy nəticəsində bu problemi həll etmək mümkündür.

2020-ci il mayın 7-də italiyalı alimlər dünyada koronavirusu məğlub etməyə qadir olacaq ilk vaksinin yaradılması haqqında elan verdilər. Vaksinin hazırlanmasını "PakisBiotech" şirkəti apardı. Bu tədqiqatçılar tərəfindən siçanlar üzərində klinikaya qədər sınaqlar aparılıb, lakin könüllülər üzərində sınaqların aparılması təxirə salınıb və bu tədqiqatların nəticələri çap edilməyib".

Həkim onu da xüsusi qeyd edir ki, insanlar üzərindəki tədqiqat üç fazaya ayrılır: təhlükəsizliyin yoxlanılması, dozanın seçilməsi və effektivliyin öyrənilməsi. Təsirin effektivlik dərəcəsini müəyyən etmək üçün könüllü olaraq vaksinasiyadan keçmiş və keçməmiş qruplar arasındakı nəticələri müqayisə etmək lazımdır: "Tədqiqatın preparatın qeydiyyatı aparılandan sonra həyata keçirildiyi dördüncü fazası da var. Bu faza qeydiyyatdan sonrakı tədqiqatlar adlanır və peyvəndin gələcəkdə istifadəsinin optimizasiyası üçün vacibdir. Hazırda koronavirus əleyhinə 31 vaksin istehsalçısı klinik sınaqlara başlayıb. Söhbət insanlar üzərində peyvəndin sınağına başlamış şirkətlərdən gedir. ÜST bu işin tənzimlənməsində iştirak edir. Daha 142 şirkət vaksinin klinikayaqədər tədqiqatlar mərhələsindədir, yəni onun insanlar üzərində sınaqlarının aparılmasına keçməyib.

Çin və Rusiyada klinik tədqiqatlar mərhələsinin başa çatmasını gözləmədən vaksini tətbiq etməyi qərara aldılar. Bu ölkələrdə peyvəndi koronavirusla yoluxmaya görə daha yüksək risk qrupunda olan şəxslərə tətbiq edirlər. Bununla bərabər, hər iki ölkə onların vaksinlərinin əlavə təsirlərinin olmadığını iddia edir".

Beləliklə, infeksion xəstəliklərin qarşısının alınması, lokalizasiyası və aradan qaldırılması ilə mübarizədə vacib, indi isə həm də həlledici vasitə vaksinasiyadır. 2020-ci ildə bütün dünyada COVID-19-un immunoprofilaktikası üçün yerli və ola bilsin ki, beynəlxalq vaksinlərin aktiv hazırlanması gedir. Vaksinin kim tərəfindən hazırlanmasından asılı olmayaraq, o, bütün bəşəriyyətə xidmət etməlidir. Bu laboratoriyalar arasındakı yarış deyil, insanlığın ölümcül virusla mübarizəsidir.

### Qorunmaq lazımdır

Nikbinliyi artıran bir səbəb də var: koronavirusun cilovlanması üçün dünya səhiyyəsinin mübarizəsi, ciddi karantin rejiminin hər bir ölkədə yenidən tətbiqi, habelə vaksin üzərində aparılan tədqiqatlar, yoxlamalar, testlər və s. Doğrudur, yoluxmaların sayının kəskin artmasında iqlim dəyişikliyinin, mövsümi qriplərin də təsiri az deyil. Bu da ötəri xarakter daşıyır. Ona görə də hər kəs bu məsələdə öz üzərinə düşən məsuliyyəti dərindən dərk etməli, özünü və ətrafını, xalqını və dövlətini qorumalıdır. Bütün bunlardan sonra deyə bilərik ki, o zaman infeksiya tədricən sönəcək. Buna qədər isə Ümumdünya Səhiyyə Təşkilatının, eləcə də respublika Nazirlər Kabineti yanında Operativ Qərargahın nəinki tövsiyələrinə, həm də yenidən tətbiq olunması vacib hesab edilən ciddi karantin tələblərinə əməl etmək məcburidir. Əks təqdirdə cərimələrdən və xəstəlikdən yaxa qurtarmaq ciddi əngələ çevrilə bilər.

Tibbi mütəxəssislərin fikrincə, profilaktik tədbirlər düzgün aparılsa, bu vəziyyətdən çıxmaq olar. Səhiyyə Nazirliyinin baş epidemioloqu da virusun ölkəmizdə son vaxtlar daha geniş yayılmasını nəzərə alaraq, ölkə vətəndaşlarını ayıq-sayıq olmağa səsləyir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasına daha 4381 yoluxma faktı qeydə alınıb, 3658 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4381 yoluxma faktı qeydə alınıb, 3658 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 47 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 167 min 155 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 103 min 550 nəfər müalicə olunaraq sağalıb, 1840 nəfər vəfat edib. Aktiv xəstə sayı 61765 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 918 min 866 test aparılıb. Dünənki test sayı isə 16282-dir.

# Bizə zəfər yaraşır

**"Azercell Telekom" Vətən müharibəsində Qələbə sevincini öz abunəçiləri ilə paylaşaraq, bütün istifadəçilərinə 1GB həcmində internet paketini hədiyyə etdi.**

Dekabrın 10-da Bakıda Azərbaycan Silahlı Qüvvələrinin Vətən Müharibəsində qazandığı tarixi Qələbə münasibətilə təntənəli hərbi parad keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun rəşadəti nəticəsində ərazi bütövlüyümüzün və tarixi ədalətin bərqərar olması səbəbilə yaşanılan ümumxalq sevinc hissi dərin vətənpərvərlik duyğularının təzahürüdür. Bu sevinci abunəçiləri ilə bölüşən "Azercell Telekom" onları töhfəsiz qoymadı. Belə ki, "Qelebe" sözünü 2525-ə yazıb göndərən istifadəçilər "Azercell"in 4G şəbəkəsi daxilində 1GB həcmli hədiyyə internet paketini əldə etdilər. Həmçinin abunəçilərə təntənəli hərbi paradı mobil cihazlarında izləmək üçün teleyayım imkanlarını rəqəmsallaşdıran, "Azercell"in təqdim etdiyi "NNTV" mobil TV xidməti vasitəsilə izləmə fürsəti verildi.




Qeyd edək ki, "Azercell Telekom" işğaldan azad olunmuş ərazilərimizdə mobil infrastrukturun, eləcə də Qarabağın tacı sayılan Şuşa şəhərində 4G mobil şəbəkə stansiyalarının quraşdırılmasına başlayan ilk operator şirkətidir. Ölkənin lider mobil operatorunun radiobaza stansiyaları demək olar ki, ordu birləşmələrimizlə birgə bütün cəbhəboyu irəliləyərək ən ucqar və əlçatmaz nöqtələrdə rabitə əlaqəsini həyata keçirməyə yardımçı olmuşdur.

Bundan əlavə, "Azercell" şirkəti ölkəmizin tarixi üçün taleyüklü bu dövrdə torpaqlarımızın azad olunması uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon manat həcmində vəsait köçürüb; "Kabinetim" tətbiqi üzərindən günün istənilən saatında, istənilən yerdən, 24/7 rejimində Silahlı Qüvvələrə Yardım Fonduna ianə köçürmələrini mümkün edib; cəbhə bölgələrinə ezam olunmuş informasiya müharibəsində savaşan bütün jurnalist və çəkiliş qrupları üzvlərinin balansına 100 AZN köçürüb; Gəncə, Bərdə şəhərlərində raket hücumu nəticəsində baş vermiş hadisələrdə abunəçilərinə rabitə dəstəyi göstərib; Vətən müharibəsində şəhid olmuş və yaralanmış hərbçilərin faktura borcunu bağışlayıb; "Azercell könüllüləri"nin xeyirxah təşəbbüslərinin davamı olaraq döyüşlərdə düşmənə layiqli cavab verən hərbçilərimizə əsgər payı göndərib və bu günə qədər ölkənin müxtəlif bölgələrində hərbi qulluqçu ailələrinə dəstək kampaniyalarını davam etdirir.

# "Human Rights Watch" təşkilatı Ermənistan tərəfindən Azərbaycanın dinc sakinlərinə və mülki obyektlərinə edilmiş raket hücumları ilə bağlı hesabat yayıb

**"Human Rights Watch" təşkilatı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc sakinlərinə və mülki obyektlərinə qarşı raket hücumları ilə bağlı apardığı araşdırmalara dair hesabat yayıb.**

AZƏRTAC xəbər verir ki, "Human Rights Watch"un noyabr ayında Azərbaycanda yerlərdə aparılan araşdırmalar zamanı erməni qüvvələrinin ballistik raketlər, idarəolunmayan top raketləri və iriçaplı artilleriya mərmilərindən istifadə etməklə yaşayış məntəqələrinin vurulmasına dair 11 fakt qeydə aldığı bildirilir. Qeyd olunur ki, ən azı dörd halda hərbi hədəflərin olmadığı ərazilərdə mülki şəxslərə və ya mülki obyektlərə zərbələr endirilib.




"Human Rights Watch"un Avropa və Orta Asiya üzrə direktoru Hugh Villiamson bildirib ki, erməni qüvvələri dəfələrlə raketlər, idarəolunmayan raketlər və ağır artilleriyadan mülki əhalinin yaşadığı şəhər və kəndlərə müharibə qanunlarına zidd olaraq zərbələr endirib. Altı həftəlik müharibə zamanı bu hücumlar mülki insanların həyatına son qoyub, onların evlərini qanunsuz olaraq dağıdıb. Bu hadisələr qərəzsiz şəkildə araşdırılmalıdır.

Qeyd edilir ki, təşkilat Ermənistan qüvvələri tərəfindən Ağdam, Bərdə, Füzuli, Gəncə, Goranboy, Naftalan və Tərtərin şəhər, qəsəbə və kəndlərinə edilən raket və artilleriya zərbələrini araşdırıb. Bu hesabatda endirilmiş zərbələrdən 40 mülki vətəndaşın ölümü və onlarca insanın yaralanması ilə nəticələnmiş 18 hal araşdırılıb ki, bunlar da hücumların 53 şahidi ilə fərdi danışıqlara və 12 telefon danışığına, xəbər reportajlarına və hökumətin məlumatlarına əsaslanır. "Human Rights Watch" eyni zamanda hücumların vaxtını və tarixini təsdiqləyən 10 hadisənin peyk görüntülərini və 9-nun sosial mediada yerləşdirilən foto və videolarını araşdırıb. Digər hücumlar gələcək hesabatlarda yer alacaq.

Ərazilərin Minalardan Təmizlənməsi üzrə Dövlət Agentliyi (ANAMA) Gəncəyə 4-17 oktyabr tarixləri arasında 32 mülki vətəndaşın öldürülməsi ilə nəticələnmiş hücumlarda idarəolunmayan "Smerch" artilleriya raketləri və "Scud-B" ballistik raketlərinin istifadə edildiyini müəyyən edib. 985 kiloqram, yüksək partlayıcı döyüş başlığı daşıya bilən "Scud-B" raketləri nəzərdə tutulan hədəfdən ən azı 500 metr yayına bilər. Müəyyən hərbi hədəfə yönəldilə bilməyən və hərbi hədəfləri mülki əhali və mülki obyektlərdən fərqləndirə bilməyən silahlardan istifadə edilən hücumlar müharibə qanunlarını pozur.

Hesabatda bildirilir ki, Ermənistanın hücumları mülki əhalinin itkisinə səbəb olmaqla yanaşı, evlərə, müəssisələrə, məktəblərə və klinikalara ziyan vurub və kütləvi köçlərə səbəb olub. Azərbaycan Baş Prokurorluğunun məlumatına görə, silahlı münaqişə zamanı 98 mülki şəxs həlak olub, 414 nəfər yaralanıb, 3000-dən çox ev, 100 yaşayış binası dağıdılıb və ya zərər görüb. Azərbaycan rəsmiləri "Human Rights Watch"a bildiriblər ki, döyüşlər nəticəsində 40 min insan öz yerlərindən didərgin düşüb. "Human Rights Watch"un nümayəndələri münaqişənin təsirinə məruz qalmış ərazilərdə olarkən sakinlər bir çox insanların, xüsusilə də qadınların və uşaqların daha təhlükəsiz bölgələrə getdiklərini deyiblər.

Hesabatda qeyd olunur ki, müharibə qanunları hücum edən tərəflərin mövcud vəziyyət imkan verməsə belə, mülki insanlara təsir edən hücumlar barədə xəbərdarlıq etmələrini tələb edir. Hücum şahidləri erməni və ya Dağlıq Qarabağ qüvvələrinin xəbərdarlıqlarından xəbərsiz olduqlarını bildiriblər. Oktyabrın 4-də Araik Arutunyan ingilis dilində tvitlər yayaraq mülki şəxsləri hərbi qüvvələrin hücum edəcəyi Gəncə də daxil olmaqla böyük şəhərlərdən ayrılaraq qaçılmaz itkiyə yol verməməyə çağırmışdı. Az sayda azərbaycanlı mülki şəxsin oxuya biləcəyi bir dildə, qeyri-müəyyən vaxtda qeyri-müəyyən hədəflərə edilən hücum təhlükələri barədə məlumat təsirli xəbərdarlıq hesab edilmir.

Ermənistan hökuməti erməni qüvvələrinin beynəlxalq humanitar hüquqa və ya müharibə qanunlarına zidd olan hücumları ilə bağlı qərəzsiz, hərtərəfli və şəffaf araşdırmalar aparmalıdır.

"Erməni qüvvələri Azərbaycanın şəhərlərini, qəsəbələrini və kəndlərini çox dağıdıcı, yanlış təyinatlı silahlarla atəşə tutublar", - deyə Hugh Villiamson qeyd edib.

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
## Qazanxana və istilik sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə
## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 dekabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
## Energetik qurğulara illik texniki xidmətlərin satın alınması məqsədilə
## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 dekabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC kimyəvi məhsulların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**“Bakı Metropoliteni” QSC üçün kimyəvi məhsulların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 100 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06 yanvar 2021-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **14 yanvar 2021-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **15 yanvar 2021-ci il saat 12:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Bakı Şəhər Fəvvarələrin İstismarı İdarəsi tərəfindən **etender.gov.az** portalında 30.10.2020-ci il tarixdə elan edilmiş nəqliyyat və xüsusi texnikaların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **“Az-Tex-İmport” MMC** müəyyən edilmişdir.

Bakı Şəhər Fəvvarələrin İstismarı İdarəsi və **“Az-Tex-İmport” MMC** arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## “Azərsu” ASC
## daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə polietilen borunun satın alınması məqsədilə
## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

**-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu;**
**-tenderin tələblərinə uyğun aşağı qiymət.**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 400 manatdır.**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 yanvar 2021-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **14 yanvar 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **15 yanvar 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ
# “AZƏRBAYCAN”
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC tərəfindən “Avtomobil nəqliyyat vasitələrinin” satın alınması üzrə keçirilən kotirovka sorğusunda 11 dekabr 2020-ci il tarixli yekun protokola əsasən, **“İdeal Motors” MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla 11 dekabr 2020-ci il tarixdə müvafiq müqavilə imzalanmışdır.

**Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev.Telefon: (+99412) 497-41-70.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC tərəfindən “Ofis daxili şəbəkə xətlərinin çəkilişi xidməti”nin satın alınması üzrə keçirilən kotirovka sorğusunda 11 dekabr 2020-ci il tarixli yekun protokola əsasən **“B2B Group” MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla 11 dekabr 2020-ci il tarixdə müvafiq müqavilə imzalanmışdır.

**Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev.Telefon: (+99412) 497-41-70.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən İnsan resursları üzrə strategiya sənədinin hazırlanması üzrə xidmətin satın alınması ilə əlaqədar elan edilmiş açıq tenderin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tələb olunan sənədlərin təqdim olunma tarixi 2020-ci il 16 dekabr saat 14:00, tender təkliflərinin verilməsinin son müddəti 2020-ci il 24 dekabr saat 14:00 və tender təklifi zərflərinin açılışı vaxtı 2020-ci il 25 dekabr saat 14:00 müəyyən edilmişdir.

***Tender komissiyası***

# «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## A L L A H  R Ə H M Ə T  E L Ə S İ N !

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, texniki elmlər doktoru, professor

**ELMİRA MƏMMƏDƏMİN QIZI RAMAZANOVANIN**

vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucova əzizi

**ARİF ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru, professor Məmməd Əliyev və kitabxananın kollektivi MEK-in Kitabxana informasiya proseslərinin avtomatlaşdırılması şöbəsinin müdiri Natavan Hacıyevaya həyat yoldaşı

**SABİR OSMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları

**VƏKİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Elmira Süleymanova Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elmira Süleymanova Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü

**ELMİRA RAMAZANOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7460
Sifariş 2799
Qiyməti 40 qəpik